## Postlarda sürücülərin COVID pasportu yoxlanılacaq



**Baş Dövlət Yol Polisi İdarəsi avtomobil nəqliyyatı ilə yük və sərnişin daşınması, o cümlədən taksi fəaliyyəti ilə məşğul olan şəxslərə vaksinasiya ilə bağlı müraciət edib.**

Nazirlər Kabinetinin 2021-ci il 26 iyul tarixli 229 nömrəli Qərarına əlavədə işçilərinin COVID-19-a qarşı peyvənd olunması və ya immunitet sertifikatının tələb olunduğu iş və xidmət sahələrinin siyahısı göstərilib. Qərara əsasən, avtomobil nəqliyyatı ilə yük və sərnişin daşınması, o cümlədən taksi fəaliyyəti ilə məşğul olan şəxslərdən də 1 sentyabr tarixindən COVID-19-a qarşı birinci doza, 1 oktyabr tarixindən etibarən isə ikinci doza peyvənd olunması və ya COVID-19-a qarşı immunitet sertifikatı tələb edilir...

(səh.2)

## Kamran Əliyev Kəlbəcər və Qubadlı prokurorluqlarına tapşırıqlar verib



**Baş prokuror Kamran Əliyev Kəlbəcər və Qubadlı Rayon Prokurorluqlarının əməkdaşları ilə görüşüb.**

Bu barədə Baş Prokurorluğun mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, K.Əliyev hər iki hərbi prokurorluğun əməkdaşlarına fəaliyyətləri ilə bağlı tapşırıq və tövsiyələrini verib.



# Günahlarını heç yağış da yumaz

### Bəhanə etməsinlər, məsuliyyətsiz məmurların ucbatından şəhər rəzil hala düşdü

**Dünən paytaxt yolları yenə dəryaya qərq olmuşdu. Səbəb heç də yağış deyil. Paytaxt yollarında yaranan tıxacın, küçələrdən axan seli yağışın ayağına yazmağa çalışırlar.**

Yağışı günahkar çıxarmaq asandı. Əslində isə vəziyyəti bu həddə çatdıran avtomobil yollarını, körpüləri inşa edənlərin məsuliyyətsizliyi, səhlənkarlığı, dövlət vəsaitini talamaq həvəsidir. Bu səbəblərdən paytaxtın demək olar əksər bölgələrində acınacaqlı vəziyyət hökm sürürdü. Hərəkət iflic olmuşdu. Ən böyük tıxaclar Bakı-Sumqayıt yolu, Xırdalan yolu, "20 Yanvar" dairəsi, Binəqədi şossesi, Nizami rayonu Hansı birini deyək? Ümumiyyətlə, yağış bir qırıq "artıq" yağan kimi paytaxt həyatı sel sularına qərq olur. Bunu da qeyd edək ki, hava şəraiti ilə bağlı Bakıda əsas magistral avtomobil yollarında sürət həddi endirilib. Heydər Əliyev prospekti-Hava Limanı-Bilgəh və Zığ dairəsi-Hava limanı avtomagistrallarında bütün zolaqlar üzrə sürət həddi aşağı salınıb.

(səh.4)


№ 176 (5458), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az

29 sentyabr 2021-ci il (çərşənbə)




## "Mənim heç vaxt Ermənistan rəhbərliyi ilə telefon danışığım olmayıb"

### Azərbaycan Prezidenti həmsədrlər təklif edəcəyi təqdirdə Paşinyanla görüşə qarşı olmadığını bildirib

**"Keçən ilin noyabr ayında müharibə bitəndən bəri bizim bir-birimizi görmək üçün yalnız bir imkanımız olub".**

Bunu Prezident İlham Əliyev "France-24" televiziya kanalına müsahibəsində "Düzdür, dialoqa yenidən başlamağa cəhd etmək və sülhə doğru irəliləmək üçün Ermənistan rəhbərliyi - Ermənistanın baş naziri ilə əlaqə yaratmısınızmı?" sualını cavablandırarkən deyib.

(səh.2)

# Avropa Şurası tərəflərlə danışıqlara başlayıb

### Təşkilat Azərbaycan və Ermənistan arasında etimadın qurulmasına çalışacaq




**"Azərbaycan və Ermənistan arasında etimadın qurulması üçün hər iki ölkə ilə danışıqlara başlamışıq".**

Bunu Avropa Şurasının Baş katibi Mariya Peyçinoviç Buriç Avropa Şurası Parlament Assambleyasının (AŞPA) payız sessiyasında çıxışı zamanı deyib. Onun sözlərinə görə, Avropa Şurasına üzv olan bəzi ölkələrdə həllə də həllini tapmayan münaqişələr var. (apa)

Baş katib bildirib ki, Avropa Şurasının bu bölgələrə maneəsiz daxil olması monitorinq prosesi üçün vacibdir. Mariya Peyçinoviç Buriç qeyd edib ki, etimadın qurulması tədbirləri tərəflər arasında münaqişənin həll olunması üçün ən vacib amillərdən biridir və hər iki dövlət buna etiraz etmədikcə bu mövzuda işlər davam etdiriləcək.



## "ASAN Xidmət" işçilərinin say həddi artırılıb

**Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin işçilərinin say həddi artırılıb.**

Bu, Prezident İlham Əliyevin bu gün imzaladığı fərmanla "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" fərmana edilən dəyişiklikdə əksini tapıb.

Fərmana əsasən, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin işçilərinin say həddi 895 ştat vahidindən 995 ştat vahidinə qaldırılıb.

## Azərbaycan Ordusu atəş açmayıb

### Guya Ermənistan hərbiçisinin yaralanması həqiqətə uyğun deyil



**Azərbaycan Ordusunun atəşi nəticəsində guya Ermənistan hərbçisinin yaralanması həqiqətə uyğun deyil.**

Müdafiə Nazirliyindən bildirilib ki, sentyabrın 28-də Azərbaycan Ordusunun bölmələri tərəfindən guya Ermənistan silahlı qüvvələrinin bölmələri istiqamətində atəş açılması və nəticədə qarşı tərəfin hərbi qulluqçusunun yaralanması barədə Ermənistan mətbuatının yaydığı məlumat həqiqətə uyğun deyil.

*Qeyd edək ki, dünən Ermənistan KİV-ində guya Azərbaycan Ordusunun Ermənistan istiqamətində atəş açdığı və atəş nəticəsində bir erməni hərbçisinin yaralanması barədə məlumatlar yayılmışdı.*

## İbrahim Kalın:

## "Sülh müqaviləsinin imzalanması bölgəyə sülh gətirəcək"



**Qarabağla bağlı həll olunmalı məsələlər var. Atəşkəs imzalanıb, amma sülh müqaviləsi əldə olunmayıb. Ermənistan kasıb bir ölkədir və iqtisadiyyatı sülh müqaviləsindən faydalana bilər.**

Trend-in məlumatına görə, bu barədə Türkiyə Prezidentinin mətbuat katibi İbrahim Kalın Haber Global-a müsahibəsində deyib.

İ.Kalın bildirib: "Sülh müqaviləsi bütün bölgəyə sülh gətirəcək. Bu həqiqətən yaxşı bir yanaşmadır. Prezident İlham Əliyev də bir neçə bəyanatlar verib. Bu sülh müqaviləsi ən qısa zamanda imzalanarsa və mina xəritələri kimi texniki məsələlər həll olunarsa, proses daha da sürətlənər".

**Mətbuat katibi qeyd edib ki, imzalanan atəşkəs razılaşmasının olduğunu, ancaq sülh müqaviləsinin olmadığını qeyd edib:**

"Bu müqavilə Ermənistana da fayda gətirəcək. Ermənilərlə heç bir problemimiz yoxdur. Bu müharibə bitməli idi və belə də oldu".

## Saakaşvili Gürcüstana qayıdır

### "Onun seçkilərdə qalib gəlmək şansı da var"



**Ukraynada Milli İslahatlar Şurasının icra komitəsinin rəhbəri olan Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvili Tbilisiyə getmək üçün oktyabrın 2-nə bilet aldığını açıqlayıb.**

Bu tarixdə ölkədə yerli seçkilər keçiriləcək. "Əlbəttə ki, dediyim kimi, oktyabrın 2-si axşam saatlarında Tbilisidə sizinlə olmaq və iradə ifadənizi qorumaq, eləcə də Gürcüstanın xilas edilməsində iştirak etmək üçün bilet aldım", - deyə Saakaşvili "Facebook"da videomüraciətdə söyləyib.

(səh.4)

## Heydər Əliyev Fondu jurnalistin müalicəsini nəzarətə götürdü



**Koronavirusa yoluxan tanınmış jurnalist, Azərbaycan Cüdo Federasiyasının baş katibinin müavini Elnur Əşrəfoğlunun müalicəsi ilə bağlı vəziyyəti Heydər Əliyev Fondu nəzarətə götürüb.**

Fond hazırda Elnur Əşrəfoğlunun müalicəsi ilə bağlı bütün zəruri tədbirlərin görülməsi üçün dəstək göstərir.

*Qeyd edək ki, koma vəziyyətində olan Elnur Əşrəfoğlu hazırda "Yeni Klinika"da EKMO aparatına qoşulub. Anası Zöhrə Hüseynova Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya müraciət edərək Elnur Əşrəfoğlunun müalicəsi ilə bağlı müvafiq köməyin göstərilməsini xahiş edib.*

## 885 yeni yoluxma faktı qeydə alınıb

### 22 nəfər vəfat edib, 2 114 nəfər sağalıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 885 yeni yoluxma faktı qeydə alınıb, 2 114 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 22 nəfər vəfat edib.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 9 525, ötən müddət ərzində isə ümumilikdə 4 839 863 test aparılıb.

## Ermənilərə etibar yoxdur

### Gürcüstanın vasitəçilik təklifi realaşa bilməz



**Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Azərbaycan və Ermənistana vasitəçilik təklif edib. Baş nazir bildirib ki, iyun ayında Gürcüstan ilk qonşu ölkə arasında uğurlu vasitəçilik edib və bu, presedenti olmayan hadisə olub.**

Onun sözlərinə görə, Cənubi Qafqazda sülh təşəbbüsü bu prosesin davamıdır: "Biz qardaş dövlətlər arasında da mediasiya, Tbilisini danışıqlar meydanı kimi təklif edirik". Gürcüstanın Avropa Şurası Parlament Assambleyasındakı (AŞ PA) nümayəndə heyətinin rəhbəri İrakli Çikovani də deyib ki, Tbilisi Cənubi Qafqazın münaqişə bölgəsindən sülh regionuna çevrilməsi üçün səhlükəsizliyin təşviqinə hər zaman hazırdır.

(səh.5)



## Əvvəlin sonu...

### S-400 raketlərinin müzakirəsi gərginliyi artıracaq

*"Əgər Ərdoğan-Putin görüşü iflasa uğrayarsa, Ankara yenidən üzünü Vaşinqtona çevirəcək"*

(səh.3)



## Qarabağ döyüşçüsü insaf gözləyir

### 11 nəfərlik ailənin yükü tək onun üzərindədir

Azərbaycan ordusunun erməni qəsbkarlarına qarşı başladığı 44 günlük Vətən müharibəsinin minlərlə qəhrəmanından biri ilə oxucularımızı tanış edirik...

(səh.6)



# "Mənim heç vaxt Ermənistan rəhbərliyi ilə telefon danışığım olmayıb"

## Azərbaycan Prezidenti həmsədrlər təklif edəcəyi təqdirdə Paşinyanla görüşə qarşı olmadığını bildirib

**"Keçən ilin noyabr ayında müharibə bitəndən bəri bizim bir-birimizi görmək üçün yalnız bir imkanımız olub".**

**Bunu Prezident İlham Əliyev "France-24" televiziya kanalına müsahibəsində "Düzdür, dialoqa yenidən başlamağa cəhd etmək və sülhə doğru irəliləmək üçün Ermənistan rəhbərliyi - Ermənistanın baş naziri ilə əlaqə yaratmısınızmı?" sualını cavablandırarkən deyib.**

Dövlət başçısı bildirib ki, bu, yanvar ayında Rusiya Prezidenti Vladimir Putin tərəfindən Moskvada təşkil olunan üçtərəfli görüş zamanı olub: "Görüşün məqsədi müharibədən sonra hadisələrin gedişatını planlaşdırmaq idi. Bizim bir-birimizi görmək üçün başqa imkanımız olmayıb. Yəqin ki, bu pandemiya ilə və ya başqa səbəblərlə əlaqədar olub. Lakin Azərbaycan heç vaxt, hətta müharibə zamanı, hətta işğal zamanı belə istənilən yüksək səviyyəli təmaslara etirazını bildirməyib. Əksinə, hesab edirik ki, bu təmaslar hər iki tərəfdə ola bilən sualları cavablandıra bilər və regionun inkişafı üçün yeni başlanğıc nöqtəsi ola bilər. Bizim mövqeyimiz çox aydındır. Biz münaqişənin həll olunduğunu hesab edirik, keçmişə qayıdış olmamalıdır, Ermənistanda revanşizm əlamətləri olmamalıdır. Biz gələcək haqqında, sülh haqqında və regionu necə daha da sabit və təhlükəsiz etmək imkanları haqqında danışmalıyıq".

"Siz bunları söyləmək üçün baş nazir Paşinyana zəng etməyə hazırsınızmı?" sualına isə Prezident "Ola bilsin ki, sizin dediyiniz kimi yox", - deyə cavab verib: "Adətən iki ölkə rəhbəri arasında təmaslar ATƏT-in Minsk qrupu çərçivəsində təşkil olunurdu. Onlar gündəliyi təklif edirdi, onlar görüşləri təşkil edirdi. Mənim prezidentlik təcrübəmdə heç vaxt Ermənistanın hər hansı bir rəhbəri ilə telefon danışığım olmayıb. Yəqin ki, bu yanaşma bunu etmək üçün doğru yol deyil. Lakin Minsk qrupunun həmsədrləri belə bir görüş təklifi ilə çıxış etsələr, əlbəttə, biz buna qarşı çıxmarıq".

Prezident ərazi iddiaları məsələsinə də toxunub:

"Mənim bəyanatlarımda heç vaxt ərazi iddialarının əlamətlərini tapa bilməzsiniz. Mənim nəzərdə tutduğum tarixi həqiqətdir. Bu, bir tarixi faktdır ki, 1920-ci ildə sovet hakimiyyəti Azərbaycanın ayrılmaz hissəsi olan Zəngəzuru qopararaq onun Ermənistana birləşdirilməsi ilə bağlı qərar qəbul edib və bu qərar icra olunub. Bu hadisə 1920-ci ildə baş verib - 101 il bundan əvvəl.

*Dövlətimizin başçısı deyib:* "Tarixi torpaqlarımız haqqında danışarkən mən ərazi iddialarından bəhs etmirdim. Siz mənim heç bir çıxışımda buna rast gələ bilməzsiniz. Bununla yanaşı, hər bir ölkə kimi, biz də tariximizi bilməli, gənc nəsil qədim tariximizi bilməli, keçmişdə hansı ərazilərdə yaşadığımızdan xəbərdar olmalı və oralara necə qayıtmalı olduğunu bilməlidir. Əminəm ki, biz oralara qayıdacağıq. Mən artıq bunu demişdim ki, biz ora tanklarla deyil, piyada, avtomaşın və təyyarələrlə gedəcəyik. Vəziyyət normallaşandan sonra sülh müqaviləsinə nail olunacaqsa, niyə də biz geri qayıtmayaq? Bu, bizim legitim hüququmuzdur".

*Prezident İlham Əliyev qeyd edib ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları var:* "Onlar hələ də iddia edirlər ki, "Dağlıq Qarabağ" bizə məxsus deyil. Onlar hələ də iddia edirlər ki, o, ya Ermənistana məxsusdur, ya da ki, "müstəqil" bir qurumdur. Azərbaycanın siyasi və coğrafi xəritəsində "Dağlıq Qarabağ" adlı ərazi vahidi yoxdur. Belə bir qurum mövcud deyil. Beləliklə, Ermənistan, ilk növbədə, Azərbaycana qarşı istənilən ərazi iddiasını geri götürməli və özünü yaxşı aparmalıdır. Biz isə adekvat münasibət göstərəcəyik".

**"Müharibə zamanı Fransa özünü dürüst vasitəçi kimi aparmadı"**

*Prezident İlham Əliyev müharibə zamanı Fransanın mövqeyinə də münasibət bildirib:*

"Fransa hər zaman Azərbaycanda dost ölkə hesab olunub. Biz bir çox iqtisadiyyat, ticarət və infrastruktur layihələrini həyata keçirmişik. Münasibətlər uğurla inkişaf edirdi və biz ümid edirik ki, Minsk qrupunun həmsədri və dürüst vasitəçi kimi Fransa bu vəzifəyə sadiq olacaq".

*Dövlətimizin başçısı qeyd edib ki, Fransa Minsk qrupunun həmsədri olmasaydı, əlbəttə, onun istənilən ölkə ilə münasibət qurması öz işi olardı.* "Bizim Fransa ilə Ermənistanın tarixi əlaqələrindən, Fransada fəal erməni icmasının olmasından və onların qərar qəbul edən şəxslərə mümkün təsirindən xəbərimiz var. Ancaq, səmimi desəm, müharibə zamanı Fransa özünü dürüst vasitəçi kimi aparmadı. Fransa tərəf seçdi - Ermənistanın tərəfini. Özünün hərəkət və bəyanatlarında Azərbaycanı açıq şəkildə ittiham etdi və qərəzli yanaşma nümayiş etdirdi. Təbii ki, bu məsələ narahatlıq doğurdu", - deyə Azərbaycan Prezidenti vurğulayıb.

**Müharibə zamanı və ondan dərhal sonra baş verənlərə qayıtmaq istəmədiyini söyləyən dövlətimizin başçısı deyib:** "Biz Parisdən gələcək münasibətlərimizlə bağlı müsbət siqnallar aldıq və onlara müsbət cavab verdik. Müxtəlif səviyyələrdə, o cümlədən bu yaxınlarda iki ölkənin xarici işlər nazirləri arasında təmaslar olmuşdur. Azərbaycan hər zaman əməkdaşlığa açıq olub. Fransa dünyada aparıcı dövlətlərdən biridir və biz normal münasibətlərin olmasını istəyirik".

*Prezident İlham Əliyev əmin olduğunu bildirib ki, Fransa regionda sülhü, sabitliyi, təhlükəsizliyi arzulayır:* "Biz də bunu istəyirik. Ümid olunur ki, Ermənistan da istəyir. Biz bunun üzərində işləməliyik, buna diqqətlə yanaşmalıyıq və bir il əvvəl baş verənlərə qayıtmalı deyilik. Bizə gəldikdə, bu çox xoşagəlməz hadisələrdən sui-istifadə etməyəcəyik. Biz səhifəni çevirmək istəyirik".

**"Müharibə zamanı əsir götürülmüş bütün hərbi əsirlər Ermənistana qaytarılıb"**

*Prezident digər bir məsləyə - əsirlər mövzusuna da toxunub:* "Müharibə zamanı əsir götürülmüş bütün hərbi əsirlər Ermənistana qaytarılıb. Ermənistan hökuməti bunu təsdiq edə bilər. Biz onları, hətta onlar bizim hərbi əsirləri qaytarmazdan əvvəl qaytardıq.

Dövlətimizin başçısı qeyd edib ki, QHT-lərin istinad etdiyi şəxslərə gəldikdə, onlar müharibə başa çatdıqdan və noyabr Bəyannaməsi imzalandıqdan iki həftə sonra Ermənistanın hərbi komandirləri tərəfindən bizim mövqelərə doğru göndərilmişdilər və beləliklə, dörd azərbaycanlı hərbçini qətlə yetirərək, cinayət törətmişlər. Onlar zərərsizləşdirildi və həbs olundular. Cinayətdə iştirakı olmayanların çoxu artıq qaytarılıb. Cinayət törədənlərə isə məhkəmələr tərəfindən cəza müəyyən edilib.

**Azərbaycan Prezidenti deyib:** "Həmin şəxslər sinifləşdirməyə, bütün beynəlxalq konvensiyalara uyğun olaraq, hərbi əsir hesab edilə bilməz. Hərbi əsirlər müharibə zamanı əsirliyə düşmüş insanlar hesab edilir. Noyabrın 10-da müharibə dayandırıldı. Dekabrın əvvəlində biz azad etdiyimiz ərazidə erməni təxribat dəstəsinin 62 üzvünü aşkar etdik. Onlar əraziyə noyabrın 26-da göndərilmişdi. Yəni, müharibə bitdikdən 16 gün sonra. Onlar hərbi əsir hesab edilə bilməz və biz onların çoxunu xoşməramlı jest kimi artıq qaytarmışıq. Lakin burada qalıb cəzasını çəkən şəxslər cinayət törədib və onlar ədalət mühakiməsi qarşısında cavab verməli idilər və bu, belə də oldu".

**İsmayıl**

# Generallar əmr quludur

## Anaşkin də komandanlığa yanlış yerdən başladı





### Rusiyanın generalı Qarabağa ədalətli nizam-intizam gətirməyəcək

**Qarabağ bölgəsində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı qüvvələrinin yeni komandiri Kosobokovu yenidən dəyişdiriblər. Onun yerinə Kosobokovdan daha yüksək hərbi rütbəsi olan, general-leytenant olan və Rusiyanın hərbi dairələrində daha böyük nüfuza malik olan Gennadi Anaşkin təyin olunub.**

Anaşkin həm də Rusiya qəhrəmanıdır. Sülhməramlıların keçmiş komandanı Muradov Anaşkini təqdim etmək üçün Qarabağa gəlib. Dünən yeni komandan Gennadi Anaşkin müdafiə naziri, general-polkovnik Zakir Həsənov tərəfindən də qəbul edilib. Görüşdə Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisindəki son vəziyyət müzakirə edilib. Qeyd edək ki, Gennadi Anaşkin 1968-ci il dekabrın 17-də Samara şəhərində anadan olub. 1986-cı ildə orta məktəbi bitirib. Məktəbdən sonra Sergey Pavloviç Korolyov adına Aviasiya İnstitutuna daxil olub. 1987-ci ilin iyun ayında sovet ordusuna çağırılıb. Xidməti Almaniyadakı sovet qoşunları qrupunun tərkibində motoatıcı kəşfiyyat taborunda baş tutub. Rusiya qəhrəmanı Gennadi Anaşkin Birinci və İkinci Çeçen müharibələrində iştirak edib. Bosniya və Herseqovinada sülhməramlı taborun komandiri olub.

**Millət vəkili Bəhruz Məhərrəmov bildirib ki, general-mayor Mixail Kosobokovun fəaliyyətə başlamasından qısa müddət sonra general-leytenant Gennadi Anaşkinlə əvəzlənməsi özlüyündə müsbət haldır. Deputatın sözlərinə görə, Mixail Kosobokovun fəaliyyəti separatçı subyektlərdə fəaliyyət təcrübəsi ilə Azərbaycan cəmiyyətində birmənalı qarşılanmamışdı:** "Əlbəttə, əsas kontingent komandanlarının deyil, dövlətin özünün mövqeyidir. Əslinə qalsa komandanlıqda Muradov, Kosobokovun yaxud Anaşkinin olması böyük mənada nəyisə dəyişmir. Amma bölgədə separatçılarla əməkdaşlıq təcrübəsi deyil, davamlı sülh və sabitliyə xidmət istiqamətində təcrübəyə malik bir hərbçinin təyinatı vacib idi. Bu baxımdan yeni təyinatı nisbətən uğurlu hesab etmək olardı. Ancaq təəssüflər olsun ki, Gennadi Anaşkin də komandanlığa yanlış yerdən start verdi. Sülhməramlılar Azərbaycanın beynəlxalq hüquqla, eləcə də Rusiya tərəfindən tanınan suveren ərazilərimizdə yerləşir. Sülhməramlıların müvəqqəti nəzarətində olan ərazilərimizdəki ermənilərin sonradan köçürülənləri istisna olmaqla, hamısı Azərbaycan vətəndaşlarıdır. Yəni Ermənistanın bu məsələyə heç bir formada aidiyyəti olmadığı halda, Gennadi Anaşkinin fəaliyyətinə İrəvanda görüşlərlə başlaması təəccüb və təəssüf doğurur. Ermənistanın Azərbaycan ərazisindəki sülhməramlı kontingentlə bağlı söz hüququ yoxdur. Sülhməramlıların yeni komandanı o halda Ermənistanda görüşlər keçirə bilərdi ki, kontingent Ermənistan-Azərbaycan dövlət sərhədində yerləşdiriləydi".

**Parlament üzvü qeyd edib ki, Gennadi Anaşkin təcrübəli hərbçi olsa da, sülhməramlının fəaliyyətində nəyinsə dəyişəcəyi ağlabatan deyil:** "Anaşkin müstəqil strateji qərarlar vermir, təlimatları Moskvadan alır. Lakin unutmayaq ki, Moskvada oturan birinci şəxsin də Azərbaycanın ərazi bütövlüyünə münasibəti aşkardır, bizi tam qane edir".

**İsmayıl**



## Gürcüstanın Baş naziri Azərbaycana gəlir

**Bu gün Bakıda Azərbaycan və Gürcüstan arasında iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın iclası keçiriləcək.**

"Report"un yerli bürosu xəbər verir ki, bu barədə "SOCAR Energy Georgia" şirkətinin Baş direktoru Mahir Məmmədov məlumat verib.

Onun sözlərinə görə, toplantıda Gürcüstanın Baş naziri İrakli Qaribaşvili də iştirak edəcək.

*Qeyd edək ki, sabahkı iclas komissiyanın sayca səkkizinci toplantısı olacaq. Hər iki ölkənin baş nazirlərinin həmsədr olduğu komissiyanın sonuncu 7-ci iclası 2011-ci il dekabrın 20-də Tbilisidə baş tutub.*

## Postlarda sürücülərin COVID pasportu yoxlanılacaq



**Baş Dövlət Yol Polisi İdarəsi avtomobil nəqliyyatı ilə yük və sərnişin daşınması, o cümlədən taksi fəaliyyəti ilə məşğul olan şəxslərə vaksinasiya ilə bağlı müraciət edib.**

Qeyd edilir ki, Nazirlər Kabinetinin 2021-ci il 26 iyul tarixli 229 nömrəli Qərarına əlavədə işçilərinin COVID-19-a qarşı peyvənd olunması və ya immunitet sertifikatının tələb olunduğu iş və xidmət sahələrinin siyahısı göstərilib. Qərara əsasən, avtomobil nəqliyyatı ilə yük və sərnişin daşınması, o cümlədən taksi fəaliyyəti ilə məşğul olan şəxslərdən də 1 sentyabr tarixindən COVID-19-a qarşı birinci doza, 1 oktyabr tarixindən etibarən isə ikinci doza peyvənd olunması və ya COVID-19-a qarşı immunitet sertifikatı tələb edilir:

"Ölkəmizdə koronavirus pandemiyasının və onun törədə biləcəyi fəsadların qarşısının alınması üçün geniş miqyaslı vaksinasiya prosesinə başlanılıb. Lakin apardığımız müşahidələr nəticəsində məlum olub ki, görülən tədbirlərin fərqinə varmayan bəzi sürücülər müəyyən edilmiş qaydalara etinasız yanaşır, əhalinin sağlamlığını təhlükə altında qoyaraq peyvənd olunmadan fəaliyyət göstərəcəklərinə ümid bəsləyirlər.

Baş Dövlət Yol Polisi İdarəsi bir daha xəbərdarlıq edir ki, avtomobil yollarında, eləcə də stasionar postlarda xidmət aparan yol-patrul xidməti əməkdaşları tərəfindən seçmə üsulu ilə avtomobil nəqliyyatı ilə yük və sərnişin daşınması, o cümlədən taksi fəaliyyəti ilə məşğul olan sürücülərin COVID-19 pasportu və ya COVID-19-a qarşı immunitet sertifikatının olub-olmaması yoxlanılacaq və bu tələblərə əməl etməyən şəxslər İnzibati Xətalar Məcəlləsinin 211.1-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb ediləcəklər".

# Ermənistanı dirçəltmək istəyən qüvvələr var

## "Həmin qüvvələrin içində İran və Rusiyanın adını xüsusi çəkə bilərik"



**Prezident İlham Əliyevin sentyabrın 27-də Türkiyənin "Anadolu" agentliyinə verdiyi müsahibə hələ də müxtəlif ölkələrin gündəmindədir. Ali Baş Komandan xüsusilə Rusiyanın bölgədəki maraqları, beynəlxalq təşkilatların səriştəsiz fəaliyyətinə diqqət çəkib.**

Prezident qeyd edib ki, Ermənistanın yenidən silahlanması ilə bağlı narahatlığımız Rusiya tərəfindən anlayışla qarşılanır:

"Rusiya tərəfi bizə müdafiə nazirinin "Ermənistanı silahlandırma prosesi yenidən başladı" sözlərini söyləmədiyini bildirdi. Bu, Ermənistan təbliğatının çirkin əməlidir. Bizə rəsmi şəkildə bildirildi ki, belə bir plan yoxdur. Biz Ermənistan ordusunun yenidən pulsuz silahlandırılması məsələsi ilə bağlı Rusiya tərəfindən qaneedici cavab aldıq və bu məsələni gündəmdən çıxardıq. Bu, Ermənistanın çirkin əməllərindən vaz keçmədiyini göstərir. Ortaya atılan bu yalan öncə böyük bir xətadır. Əgər sən Rusiya müdafiə nazirinin söyləmədiyi sözləri yayırsansa, bu, ən azı məsuliyyətsizlik, təxribatdır. İkincisi, biz bunu dəfələrlə işğal dönəmində də gördük, işğaldan sonra da gördük ki, Ermənistan və Rusiyada fəaliyyət göstərən erməni lobbisi hər gün davamlı olaraq Rusiya və Azərbaycan münasibətlərində çatlar yaranması üçün çalışır. Hər gün davamlı olaraq... Onların gündəlik işi Azərbaycana qara yaxmaq, Rusiya mətbuatında Azərbaycanla bağlı mənfi imic formalaşdırmaq, Rusiya və Azərbaycanın münasibətlərinə kölgə salmaqdır. Düşünürlər ki, bu durumda intiqamçı qüvvələr yenidən baş qaldıraraq bizə qarşı savaşa başlaya bilər. Lakin onlar yanılırlar".

**Mövzu barədə fikirlərini "Şərq"lə bölüşən ehtiyatda olan polkovnik, hərbi ekspert Üzeyir Cəfərov söyləyib ki, Azərbaycan Prezidenti Rusiyaya müttəfiq və qonşu dövlətlər olduğumuz və hər məqamdan xəbər tutduğumuzla bağlı ciddi mesajlar verib:**

"Ali Baş Komandan Vətən müharibəsi dövründə də Rusiyaya dəfələrlə hər şey barədə məlumatımız olduğunu bildirib. Rusiya necə sülh yaratmaq missiyasını yerinə yetirir ki, eyni zamanda düşmənə silah-sursat yardımı edir? Bu, məntiqdən uzaq olan bir durumdur. Ölkə başçısı bu günlərdə Rusiyanın "Nasionalnaya oborona" jurnalına verdiyi müsahibədə rus sülhməramlılarına onların fəaliyyətindən razı qalmaq istədiyimizi eşitdirmişdi. "Anadolu" agentliyinə isə verdiyi müsahibədə bildirdi ki, rus sülhməramlıları bəzi hallarda Azərbaycanın icazəsi olmadan ərazilərimizə xarici ölkə vətəndaşları və avtomobilləri buraxır. Dövlətimiz bütün məqamları çox gözəl bilir. Ancaq təəssüf ki, bu gün Ermənistanı dirçəltmək istəyən qüvvələr var. Həmin qüvvələrin içində İran və Rusiyanın adını xüsusi çəkə bilərik. Ölkə başçısı qonşuluq xatirinə bəzi məqamları sərtliklə dilə gətirmir. Rusiyaya bu qədər loyallıq göstəririk, əvəzində isə çalışırlar ki, separatizmə dəstək olsunlar. Ona görə də Rusiya və Ermənistan ölkə başçısının dediyi cümlənin hər birindən nəticə çıxarmalıdır. Azərbaycan istənilən zaman lazım olan addımları atacaq. Heç kəsin buna şübhəsi olmasın".

**Yeganə Bayramova**

# Türküstan Bəyannaməsi qəbul edilib

## TÜRKPA-ya üzv ölkələrin parlament sədrlərinin iştirakı ilə mətbuat konfransı keçirilib




**Dünən Qazaxıstanın Türküstan şəhərində keçirilmiş TÜRKPA-nın 10-cu plenar iclasının yekunlarına dair mətbuat konfransı olub. Mətbuat konfransında Azərbaycan parlamentinin sədri Sahibə Qafarova çıxış edib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən ”Şərq”ə verilən məlumata görə, təşkilat qarşısında dayanan vəzifələrin icrası baxımından 10-cu plenar iclasın əhəmiyyətini qeyd edən Milli Məclisin sədri deyib ki, gündəliyə daxil olan bütün məsələlər işgüzar şəraitdə geniş müzakirə olunub və müvafiq qərarlar qəbul edilib.

Tədbirin Türküstan şəhərində keçirilməsinin böyük önəm daşıdığını deyən Milli Məclisin sədri Qazaxıstanın birinci prezidenti Nursultan Nazarbayevin ölkənin tərəqqisi üçün gördüyü işləri yüksək qiymətləndirib.

Yekunda Türküstan Bəyannaməsinin qəbul edildiyini bildirən spiker Sahibə Qafarova jurnalistlərə məlumat verib ki, Bəyannamədə Türk dünyasına aid bir çox önəmli məsələlər, o cümlədən Azərbaycan ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünü bərpa etməsi kimi mühüm məsələ öz əksini tapıb. Sənəddə həmçinin 2021-ci ilin 15 iyun tarixində imzalanmış Azərbaycanla Türkiyə arasında çoxşaxəli əməkdaşlığın daha da genişlənməsinə və bölgədə dayanıqlı sabitliyin təmin edilməsinə yönəlmiş Şuşa Bəyannaməsi təqdirlə qeyd edilib, Zəngəzur dəhlizinin açılmasının Türk dünyasının tranzit və ticarət potensialına böyük töhfə verəcəyi vurğulanıb.

Azərbaycan parlamentinin rəhbəri əminlik ifadə edib ki, toplantıda qəbul edilən qərarlar türkdilli ölkələrin rifahına xidmət edəcək, dövlətlərarası münasibətləri daha da möhkəmləndirəcək.

Milli Məclisin sədri təşkilatın fəaliyyətdə olan sədrinə və həmkarlarına uğurlar arzulayıb.

*Sonra tədbirdə jurnalistləri maraqlandıran suallara aydınlıq gətirilib.*

# Əvvəlin sonu...

## S-400 raketlərinin müzakirəsi gərginliyi artıracaq



### *Əgər Ərdoğan-Putin görüşü iflasa uğrayarsa, Ankara yenidən üzünü Vaşinqtona çevirəcək*

İsmayıl Qocayev

**Türkiyənin Rusiyadan S-400 sistemləri almasından narahatıq. Bu sözlər ABŞ Senatının Beynəlxalq Münasibətlər Komitəsinin yaydığı məlumatda əksini tapıb.**

Məlumata görə, komitə Türkiyənin Rusiya ilə yeni razılaşma imzalayacağı halda Ankaraya qarşı əlavə sanksiyalar tətbiq edəcəyini bildirib: ”Biz CAATSA qanununu yazarkən aydın şəkildə ifadə etmişik ki, sanksiyalar Rusiya hərbçiləri və ya kəşfiyyat strukturları ilə bağlı istənilən böyük biznes və müəssisəyə tətbiq edilir. Türkiyənin istənilən yeni alışı yeni sanksiyalara gətirib çıxaracaq”. Məlum olduğu kimi Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Rusiya səfəri çərçivəsində Soçidə həmkarı Vladimir Putinlə görüşəcək. Görüşdə müxtəlif məqamlarla yanaşı, S 400 raket kompleksləri ilə bağlı müzakirələrin aparılacağı barədə məlumatlar var. Bir sıra ekspertlərin fikrincə, Rusiya-Türkiyə arasında S 400 raketlərinin müzakirəsi növbəti ABŞ-Türkiyə gərginliyinə, Ankaraya qarşı sanksiyalara səbəb ola bilər.

**Politoloq Azər Rəşidoğlu isə ”Şərq”ə açıqlamasında deyib ki, Türkiyə NATO üçün mühüm müttəfiqidir.** Siyasi şərhçiyə görə, Türkiyənin Rusiyadan S-400 müdafiə sistemi almaq qərarı 2017-ci ilin əvvəllərindən etibarən Türkiyə-Amerika münasibətlərindəki çoxpilləli gərginliyi daha da artırıb. Gərginlik müdafiə sənayesinə də təsir edib: ”11 aprel 2017-ci ildə açıqladığı bir protokolda Türkiyə ”Patriot” sisteminin satışı üçün ABŞ-ın yaşıl işıq yandırmadığını, ona görə də Rusiyadan qiyməti 2,5 milyard dollar olan S-400 antiballistik raket sistemini alacaqlarını bildirdi. Ankara və Moskva arasındakı razılaşma S-400 sistemlərinin Türkiyəyə 2019-cu ilin ortalarında gətirilməsini və lazımi hazırlıq işlərindən sonra aktivləşdirilməsini nəzərdə tuturdu. NATO-nun bir çox məsələdə gərgin münasibətdə olduğu Rusiyadan Türkiyənin müasir hava müdafiəsi sistemi alması ABŞ-da və digər müttəfiq ölkələrdə narahatlıq yaratdı. Amerika bəyan etdi ki, bu sistemlərin Türkiyədə qurulması 5-ci nəsil hərb təyyarəsi olan F-35-lərin uçuş təhlükəsizliyinə problem yaradacaq. Geri addım atılmayacağı təqdirdə Türkiyə 2001-ci ildən bəri iştirak etdiyi layihədən çıxarılacaq. Həmçinin, satın aldığı 4 ədəd F-35 təyyarəsi ona təslim edilməyəcək. Buna cavab olaraq Türkiyə iyul və avqust aylarında S-400 sistemlərinin alışını reallaşdırdı”.

**A.Rəşidoğlunun fikrincə, Konqresin bütün təzyiqlərinə baxmayaraq, keçmiş prezident Donald Tramp sanksiyalara əl atmadı:** ”Trampı sanksiya fikrindən daşındıran faktlardan biri Ərdoğanın 3,5 milyard dollarlıq ”Patriot”ları almaqda maraqlı olduğunu deməsi oldu. Ankara-Vaşinqton münasibətlərində gərginlik davam etməkdədir. Lakin Ankaranın Rusiya ilə də problemləri mövcuddur. Suriya, xüsusən İdlib məsələsində qarşıdurma daha qabarıqdır. Əgər Ərdoğan-Putin görüşü iflasa uğrayarsa, istənilən nəticə əldə olunmazsa, Ankara yenidən Vaşinqtonla münasibətlərini tənzimləməyə çalışacaq”.

# İran açıq şəkildə düşmənə dəstək verir

## Tehranın addımları dövlətimizə və təhlükəsizliyimizə təhdiddir

İsmayıl Qocayev



### *“Yaxın perspektivdə Azərbaycana düşmənçilik edən dövlətə etirazların olacağı istisna edilmir”*

**İrana məxsus yük avtomobillərinin Rusiya sülhməramlılarının nəzarətində olan Azərbaycan ərazisinə qanunsuz səfərlərinə dəfələrlə şahidlik etmişik. Hətta ötən ayın 11-də Azərbaycanın Xarici İşlər Nazirliyi bununla bağlı İranın ölkəmizdəki səfiri Seyid Abbas Musəviyə rəsmi etiraz notası da vermişdi.**

Daha sonra Prezident İlham Əliyev ”CNN Türk” kanalına müsahibəsində Azərbaycan ərazisinə avtomobillərin qanunsuz keçidinə toxunaraq, Bakının məsələdən narahat olduğunu göstərmişdi. Əfsuslar olsun ki, İran bu eyhamdan nəticə çıxarmadı və qanunsuz əməllərini davam etdirdi. Nəticədə ölkə rəhbəri ”Anadolu” agentliyinə müsahibəsində İranın adını çəkərək yük maşınlarının Qarabağa qanunsuz girişi ilə bağlı Tehrana dəfələrlə rəsmi xəbərdarlıq edildiyini bildirdi. Dövlət başçısı Azərbaycanın narazılığının müxtəlif kanallarla İrana çatdırıldığını vurğuladı. İran TIR-larının Qarabağa qanunsuz yük daşımasını Azərbaycana qarşı hörmətsizlik kimi dəyərləndirən dövlət başçısı buna son qoyulmasının vacibliyini bəyan etdi.

**Türkiyənin Ərciyəs Universitetinin professoru Qafar Çaxmaqlı ”Şərq”ə açıqlamasında deyib ki, İran TIR-larının Xankəndi və digər yerlərə qanunsuz giriş-çıxışı, sərhədlərimizə yaxın ərazilərdə hərbi təlim keçirməsi Tehranın Azərbaycana qarşı apardığı qərəzli siyasətin davamıdır.** Professorun sözlərinə görə, İranın addımları dövlətimizə və təhlükəsizliyimizə təhdiddir: ”İran dövlətinin Qarabağ məsələsində tutduğu mövqe bəllidir. Bir çox məsələlərdə Ermənistanla mövqeyinin üst-üstə düşdüyünün şahidiyik. Müsəlman İran dövləti Azərbaycana düşmən olan xristian Ermənistana hər zaman qol-qanad olub. Ermənistanın təcavüzkarlıq siyasəti ayrı-ayrı zamanlarda İran tərəfindən dəstəklənib. İrəvanın İranı özlərinə ən yaxın dost ölkə görməsinin səbəbi budur. İran şimalda güclü Azərbaycan istəmir. Ona görə də İkinci Qarabağ müharibəsindən sonra İranın siyasətində dəyişiklik olacağını gözləməməliyik. Tehran rejimi Azərbaycanın qələbəsini həzm edə bilmir və ölkəmizin daha da güclənməsinin qarşısını almaq üçün nə lazımdırsa onu edir. Zəngəzur dəhlizinin açılmasının real olduğunu bilə-bilə alternativ kimi Ermənistandan keçəcək Çin-Avropa marşrut layihəsini ortaya atır. Açıq şəkildə Türkiyə və Azərbaycanın Zəngəzur dəhlizinin açılması siyasətinə mane olmağa çalışır”.

**Q.Çaxmaqlıya görə, Azərbaycan və Türkiyəyə qarşı Ermənistan-İran birləşməsi prosesi gedir:** ”Erməni mətbuatında gedən analitik yazılar və ayrı-ayrı siyasi şəxslərin açıqlamaları bunu deməyə əsas verir. Belə durumda İranda hansısa dini şəxsin Azərbaycana dil uzatması, müxtəlif səviyyələrdə hədələrin olması təbiidir. Ən faciəlisi odur ki, Azərbaycanı hədələyənlər türk əsilli adamlardır. Təbii ki, Cənubi Azərbaycandan olan 40 milyonluq əhalinin bu siyasətə qarşı təpkisi var. Müharibə dövründə bunun şahidi olduq. Amma daxildə İranın bu siyasətinə ciddi direniş məlum səbəblərdən hələ yoxdur. Yaxın perspektivdə Azərbaycana düşmənçilik edən dövlətə etirazların olacağı istisna edilmir. Zənnimcə, bölgədə formalaşan yeni düzən, regional siyasi maraqlar, ayrı-ayrı dövlətlərin aktivləşməsi İranın mövqeyinin durulmasına və dəyişməsinə səbəb olacaq. Hər halda İranı buna məcbur etmək üçün onun düşməncə hərəkətlərini durmadan ifşa etmək lazımdır. Azərbaycan Prezidentinin ”Anadolu” agentliyinə müsahibəsində İranın düşmənə açıq dəstəyi bütün detalları ilə dilə gətirildi”.




# Daha vasitəçilərə ehtiyacımız yoxdur

## Minsk qrupunun məqsədi bölgədə sülh, əmin-amanlıq və dayanıqlı inkişaf deyil

Yeganə Bayramova

**Prezident İlham Əliyev Türkiyənin ”Anadolu” agentliyinə verdiyi müsahibəsində ATƏT-in Minsk qrupunun indiki dövrdə fəaliyyətinə münasibət bildirib. Ölkə başçısı qeyd edib ki, hazırkı dönəmdə Minsk qrupunun fəaliyyətini görmürük:**

”Adətən, müzakirə dönəmində onlar gəlirdi, tövsiyələr verirdilər, prezidentlər səviyyəsində görüşlərin gündəmini müəyyənləşdirirdilər, müzakirə ediləcək mövzuları bizə tövsiyə edirdilər, hər iki tərəf də razılaşma əsasında bu mövzuları müzakirə edirdi. İndi isə müharibənin bitməsindən 1 il keçməsinə rəğmən onlardan hər hansı bir tövsiyə yoxdur. Bir dəfə Azərbaycana gəldilər və mən onlara dedim ki, siz təkliflər verin. Minsk qrupunun fəaliyyəti üçün bu gün yeni mövzular ortaya çıxmalıdır. Dağlıq Qarabağ problemi bitdi, indi nə edilə bilər? Etimad artırıcı tədbirlər, yolların, koridorların açılması, sülh prosesinə dəstək vermək, Ermənistan-Azərbaycan münasibətlərini qaydaya salmaq, Ermənistan və Azərbaycan arasında sülh müqaviləsi imzalanmasına çalışmaq. Onların fəaliyyət sahəsi bundan sonra saydıqlarımdan ibarət olmalıdır”.

Dövlət başçısı diqqətə çatdırıb ki, Minsk qrupu II Qarabağ müharibəsindən sonra bizə hər hansı təklif verməyib: ”Təklif olmadığı üçün Minsk qrupunun fəaliyyəti haqqında danışmağın yeri yoxdur. Artıq 1 il keçib. Nə təklif edirsən? Deyirsən ki, bu münaqişə həll edilməlidir. Mən Azərbaycan olaraq deyirəm ki, mən bunu həll etdim. Özüm. Bütün təzyiqlərə rəğmən. Dolayısıyla bir təklif olmalıdır. Nə ilə məşğul olmalıdırlar? Mən öz fikirlərimi ifadə etdim, qalanı onların məsuliyyətindədir”.

*Prezidentin verdiyi müsahibədə ən aktual məsələlərə toxunduğunu diqqətə çatdıran millət vəkili Məlahət İbrahimqızı ”Şərq”ə bildirib ki, bunlardan biri də ATƏT-in fəaliyyəti ilə bağlı olan məsələdir:* Xanım parlamentari qeyd edib ki, BMT, AŞ PA, ATƏT kimi beynəlxalq təşkilatlar 30 ilə yaxın müddətdə ancaq qərəzli mövqe nümayiş etdiriblər: ”Prezidentimiz çox cəsarətli açıqlamalar verərək bildirdi ki, bəzi beynəlxalq təşkilatlar özlərinə sərf edəndə hansısa qətnamənin icra mexanizmini tez zamanda tapırlar. Lakin Azərbaycan xalqının haqq işinə qarşı riyakarlıq nümayiş etdirirdilər. Onsuz da artıq cəmiyyətimiz qeyd etdiyim beynəlxalq təşkilatlara heç bir ümid və inam bəsləmir”.

**M.İbrahimqızı vurğulayıb ki, postmüharibə dönəmində Azərbaycan və Ermənistan arasındakı etimad mühitinin yaradılması üçün cənab Prezident ”3+3” formatının vacibliyini qeyd edib:** ”Bu formatla bölgədə əməkdaşlıq etmək üçün hər iki xalqın etimad mühiti yaradılmalıdır. Beynəlxalq təşkilatların da bununla bağlı kifayət qədər təcrübəsi var. Ölkə başçısı münaqişə bitdikdən sonra dəfələrlə Minsk qrupunun həmsədrlərinə nə üçün gəldiklərini açıq-aşkar söyləyib. Fikrimcə, ATƏT üçün bundan ağır söz yox idi. Ancaq həmsədr ölkələr çalışırlar ki, Minsk qrupuna yenidən ”can versinlər”. Qarabağ münaqişəsi sona çatdıqdan sonra ATƏT nəyi həll edəcək ki? Cənab Prezident müsahibəsində və xalqa çıxışında bildirdi ki, artıq ”Dağlıq Qarabağ” adlı münaqişə yoxdur. Belə çıxır ki, Minsk qrupunun məqsədi bölgədə sülh, əmin-amanlıq və dayanıqlı inkişaf deyil. Əksinə, onlar münaqişənin olmasını istəyirlər. Beləliklə, turist kimi münaqişə yaşayan ölkələrə boş səfərlərinə davam etsinlər. Bu, həqiqətən də beynəlxalq təşkilatların rəzaləti deməkdir!”.

# Soçi görüşünə Lukaşenkonun da kölgəsi düşür

## Qafqazla bağlı qərar qəbul edilərsə, burada Belarus liderinin vasitəçiliyi və təmasları müstəsna əhəmiyyət kəsb edəcək



**”Rusiya Prezidenti Vladimir Putin və Türkiyə lideri Rəcəb Ərdoğan arasında Rusiyada baş tutacaq görüş öncəsi Belarus rəhbəri Aleksandr Lukaşenko Soçiyə gəlib. Lukaşenkonun səfəri özəl xarakter daşısa da, onun gəlişinin Soçi görüşü öncəsinə təsadüf etməsi diqqət çəkir”.**

Bu barədə ”Şərq”ə siyasi şərhçi Turan Rzayev deyib. Görüş öncəsi baş verən prosesləri təhlil edən analitik vurğulayıb ki, Soçi görüşü zamanı Ərdoğan və Putinin müzakirə edəcəyi başlıca mövzulardan biri Qarabağ məsələsi olacaq: ”Düzdür, Rusiya Xarici işlər naziri Sergey Lavrov Soçidə baş tutacaq görüşdə tərəflərin Suriyadakı terrorçular və müxaliflərin sərhədinin müəyyən edilməsi məsələsini müzakirə edəcəyini bildirib. Lakin Ərdoğanın Qarabağ məsələsini israrla müzakirəyə daxil edəcəyi sirr deyil. Ərdoğanın 44 günlük müharibənin başlanmasının ildönümü münasibətilə Prezident İlham Əliyevə zəngi bunu təsdiqləyir. Ümumiyyətlə, rəsmi Bakı və Ankara arasında siyasi məsləhətləşmələrin olması adi hala çevrilib. Ekspertin sözlərinə görə, tərəflər vaxtaşırı telefon zəngi ilə və ya birbaşa görüşərək regionda baş verən prosesləri müzakirə edirlər. İki lider birlikdə atılacaq addımları müəyyənləşdirərək veriləcək qərarların detallarını birlikdə müzakirə edir. Bu mənada deyə bilərik ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkə başçısına telefon zəngi təkcə 44 günlük müharibənin Anım günü ilə əlaqəli deyil, həm də Soçi görüşü öncəsi son məsləhətləşmədir”.

**T.Rzayevə görə, Belarus rəhbərinin Rusiya və Azərbaycan prezidentləri ilə münasibətlərinin nə dərəcədə yaxşı olduğu hər kəsə bəlidir:** ”Son aylarda Lukaşenko-Ərdoğan dialoqu inkişaf etməkdədir. Lukaşenkonun Soçi görüşü öncəsi Ərdoğanla qeyri-rəsmi telefon danışığı, eyni zamanda Putinlə təması gözlənilir. Soçi görüşündə Qafqazla bağlı qərar qəbul edilərsə, burada Lukaşenkonun vasitəçiliyi və təmasları müstəsna əhəmiyyət kəsb edəcək. İndiki halda Lukaşenkonun Türkiyə və Azərbaycana yaxınlaşması təsadüfi deyil. Ölkə rəhbərləri arasında dostluqdan əlavə Belarusun ciddi ölçüdə maliyyə yardımına ehtiyacı var. Lukaşenko anlayır ki, ölkə iqtisadiyyatını və rifahını yaxşılaşdıra bilsə, bu, ona qarşı günü-gündən artan narazı kütləni az da olsa sakitləşdirər. Buna görə də Belarus prezidenti müəyyən mənada Ankara və Bakının maraqlarını öz maraqları kimi görür”.

**İsmayıl**



# Günahlarını heç yağış da yumaz

Bəhanə etməsinlər, məsuliyyətsiz məmurların ucbatından şəhər rəzil hala düşdü

Mələhət Rzayeva

**Dünən paytaxt yolları yenə dəryaya qərq olmuşdu. Səbəb heç də yağış deyil. Paytaxt yollarında yaranan tıxacın, küçələrdən axan seli yağışın ayağına yazmağa çalışırlar. Yağışı günahkar çıxarmaq asandı. Əslində isə vəziyyəti bu həddə çatdıran avtomobil yollarını, körpüləri inşa edənlərin məsuliyyətsizliyi, səhlənkarlığı, dövlət vəsaitini talamaq həvəsidir.**

Bu səbəblərdən paytaxtın demək olar əksər bölgələrində acınacaqlı vəziyyət hökm sürürdü. Hərəkət iflic olmuşdu. Ən böyük tıxaclar Bakı-Sumqayıt yolu, Xırdalan yolu, "20 Yanvar" dairəsi, Binəqədi şossesi, Nizami rayonu Hansı birini deyək? Ümumiyyətlə, yağış bir qırıq "artıq" yağan kimi paytaxt həyatı sel sularına qərq olur. Bunu da qeyd edək ki, hava şəraiti ilə bağlı Bakıda əsas magistral avtomobil yollarında sürət həddi endirilib. Heydər Əliyev prospekti-Hava Limanı-Bilgəh və Zığ dairəsi-Hava limanı avtomagistrallarında bütün zolaqlar üzrə sürət həddi aşağı salınıb. Məqsəd, hərəkətin təhlükəsizliyini təmin etməkdir. Bakı Nəqliyyat Agentliyi də hərəkət iştirakçılarına bu cür hava şəraitində ehtiyatlı olmağı tövsiyə edir. Sürücülərdən yollarda sürət həddinə əməl etmələrini, meteoroloji amilləri nəzərə almalarını və digər hərəkət iştirakçılarına qarşı anlayışla davranmalarını xahiş edir. Eyni zamanda, piyadalara yolun hərəkət hissəsinə çıxmamaq və yolun qarşı tərəfinə keçərkən müəyyən olunan piyada keçidlərindən istifadə etmələri tövsiyə edilir.

Piyada keçidlərlə bağlı bunu deyə bilərik ki, yerüstü keçidlər - piyada zolaqları yağış sularından görünməz olub. Piyadalar necə, hardan keçsin?

**Problemlə bağlı "Şərq"ə danışan Bələdiyyələrin Fəaliyyətinin Təbliği İctimai Birliyinin sədri Vüqar Tofiqli qeyd etdi ki, şəhər infrastrukturu qurularkən, yaxud da yenilənərkən hər şey nəzərə alınmalıdır:**

- İllik yağış norması nə qədərdir, normadan artıq düşərsə vəziyyət necə ola bilər, hansı yollarda hərəkət daha intensivdir, günün hansı saatlarında hərəkət intensivliyi hansı istiqamətdə artır, körpülər hərəkəti tənzimləməyə xidmət edirmi, kanalizasiya xətləri çirkab sularının axıdılması üçün uyğun ölçüdədirmi, yağış sularının axıdılması üçün dəmir barmaqlıqlar yetərlidirmi və sair Bütün işlər görülərkən layihə hazırlanır və bu layihədə hər şey nəzərə alınır, ya da alınmalıdır. Baxın, cənab Prezident yol infrastrukturu, kanalizasiya xətləri, magistral yolların tikintisiylə bağlı indiyədək nə qədər sərəncamlar imzalayıb, dövlət büdcəsindən bu tikintilərə nə qədər pullar ayrılıb. Nəticə nədir? Yağış yağan kimi yollardan sel axır, hərəkət dayanır. Deməli, icraçılar işə məsuliyyətlə yanaşmır. Məsuliyyətsiz məmurların ucbatından şəhər bu cür rəzil hala düşür. Hesab edirəm ki, "yağış iqlim normasından artıq yağdı" kimi açıqlamalar ancaq bəhanədir. Və büdcədən əlavə vəsait tələb etmək niyyətidir. "Bəxtiyar" filmində deyildiyi kimi "mən qazıram, o isə montaj edir". Biri yolu qazır elektrik dirəyi basdırır, sonra o biri gəlib qazır, qaz xətti çəkir, biri kanalizasiya qapağını açıq qoyub gedir arada zərbə vətəndaşa dəyir.

# Ya verməlidirlər, ya təmizləməlidirlər



**Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) bu gün işə başlayan payız sessiyasında "Ermənistan və Azərbaycan arasındakı münaqişənin humanitar nəticələri" adlı qətnamə qəbul edilib.**

Professor: "Azərbaycan minaların təmizlənməsinə görə vəsait xərcləməməlidir"

Qətnamədə 1991-1994-cü illərdə baş verən birinci Qarabağ müharibəsi və 2020-ci ildə 44 günlik İkinci Qarabağ müharibəsi zamanı həlak olanlar, itkin, qaçqın, məcburi köçkün düşənlər, mədəni irsə dəyən ziyanlar, minalanmış ərazilər və digər məsələlər yer alıb. Qarabağ müharibəsi zamanı baş verən insan faciəsinin aradan qaldırılması məqsədilə hər iki tərəfə tövsiyələr ünvanlanıb. AŞ PA Birinci Qarabağ müharibəsinə son qoyan 9-10 noyabr tarixli atəşkəs elan olunmasına dair üçtərəfli razılaşmanı yüksək qiymətləndirib, sənədin atəşkəs üçün əsas elementlərdən ibarət olduğunu, müharibənin humanitar nəticələrinin həll edilməsinə imkan yaradan aparıcı sənəd olduğunu bildirib. Qətnamənin müzakirəsi zamanı çıxış edən AŞ PA üzvləri mina xəritələrinin Azərbaycana verilməsinin bundan sonrakı insan ölümünün qarşısının alınması üçün vacib olduğunu xüsusi vurğulayıblar. Beynəlxalq icma, xüsusilə Avropa Şurası hər iki ölkəyə yardım göstərməyə dəvət edilib.

**Bu barədə "Şərq"ə danışan BDU-nun Hüquq fakültəsinin dekanı, professor Əmir Əliyev xəritənin verilməsinin düşmənin öhdəliyi olduğunu bildirib:** "Əlbəttə, İrəvan xəritəni verməlidir. BMT Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qətnamələrində göstərilir ki, məcburi köçkünlərin şərəfli və təhlükəsiz qayıdış hüququ var. İkinci bir tərəfdən, 9-10 noyabr üçtərəfli bəyannaməsinə görə erməni terrorçuları Qarabağdan çıxmalı idi. Deməli, xəritəni ya verməli, ya da özləri minaları təmizləməlidirlər. Azərbaycan minaların təmizlənməsinə görə vəsait xərcləməməlidir. Beynəlxalq öhdəliyini yerinə yetirməyəcəyi təqdirdə biz Ermənistanı beynəlxalq məhkəmələrə verə bilərik".

**Kənan**

# Saakaşvili Gürcüstana qayıdır



"Onun seçkilərdə qalib gəlmək şansı da var"

**Ukraynada Milli İslahatlar Şurasının icra komitəsinin rəhbəri olan Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvili Tbilisiyə getmək üçün oktyabrın 2-nə bilet aldığını açıqlayıb. Bu tarixdə ölkədə yerli seçkilər keçirilməlidir. "Əlbəttə ki, dediyim kimi, oktyabrın 2-si axşam saatlarında Tbilisidə sizinlə olmaq və iradə ifadənizi qorumaq, eləcə də Gürcüstanın xilas edilməsində iştirak etmək üçün bilet aldım", - deyə Saakaşvili "Facebook"da videomüraciətdə söyləyib.**

Sentyabrın 6-sı Mixail Saakaşvili oktyabrın 2-nə təyin olunan bələdiyyə seçkiləri ərəfəsində vətəninə gələcəyini açıqlayıb. Siyasətçinin sözlərinə görə, Gürcüstan hökuməti onu həbs etsə belə, gürcü xalqı keçmiş prezidentini azad edəcək.

2013-cü ildə səlahiyyət müddəti başa çatdıqdan dərhal sonra Gürcüstanı tərk edən Mixail Saakaşvili Tbilisi məhkəməsi tərəfindən vəzifələrindən sui-istifadə etməklə bağlı iki cinayət işi üzrə üç və alt il həbs cəzasına məhkum edilib.

**Saakaşvilinin qərarını "Şərq"ə şərh edən siyasi analitik Turab Rzayev bunun məqsədəuyğun olduğunu bildirib:**

"Hazırda Gürcüstanda ana müxalifət Saakaşvilinin sədri olduğu "Vahid Milli Hərəkat" Partiyasıdır. Və keçmiş prezident bu partiyanın aparıcı simasıdır. Ötən seçkilərdə partiya iqtidar partiyasına yaxın səs toplasa da, Saakişvili vəziyyəti kənardan idarə edə bilmədi. Ona görə də düşünür ki, ən yaxşı variant Gürcüstana qayıtmaqdır. Bu zaman seçki aktivliyi artacaq, tərəfdarların fəallığı güclənəcək. Hətta Saakaşvilinin növbəti seçkilərdə qalib gəlmək şansı da var. İqtidar partiyası səsvermədə 3-5 faiz irəlidə olsa belə, xalq hazırkı hakimiyyəti istefaya da məcbur edə bilər. Amma keçmiş dövlət başçısı özü Gürcüstanda olmasa, bu, mümkün deyil".

**Kənan**

Aynurə Pənahqızı

"Lavrovun Qarabağla bağlı səsləndirdiyi sabitliyi maraqlarımıza uyğun deyil"



# Ermənilər Azərbaycan bayrağı altında yaşamalıdır

**Ötən gün Rusiyanın Xarici işlər naziri Sergey Lavrov keçirdiyi mətbuat konfransında Qarabağla bağlı fikir səsləndirib. O bildirib ki, Qarabağla bağlı üçtərəfli razılaşmanın başlıca nəticəsi sabitlikdir:**

"Ötən il Rusiya, Azərbaycan və Ermənistan liderlərinin Qarabağda hərbi əməliyyatların tam dayandırılması barədə əldə etdiyi razılaşmaların başlıca nəticəsi münaqişə zonasında vəziyyətin sabitləşməsidir". O bildirib ki, sabitlik təmin olunub və dəstəklənir: "Rusiya sülhməramlı kontingentinin xidməti sayəsində biz hər hansı zorakılıq addımlarını müşahid etmirik. İlkin mərhələdə olan xırda insidentlər tez həllini tapdı. Bir daha təkrar edirəm, bəzi problemlər olsa da, indi orada vəziyyət sabitdir".

**Mövzu iilə bağlı BAXCP sədrinin müşaviri, politoloq Azər Qasımov "Şərq"ə açıqlamasında bildirib ki, Lavrovun bu bəyanatı reallıqları əks etdirmir. Siyasi analitik bildirib ki, sadəcə burada Rusiya sayağı mövqe sərgilənib:** "Əgər sakitlik sərhəddə tez-tez atəşkəsin pozulması, Azərbaycan ərazilərinə Azərbaycanın icazəsi olmadan hansısa şəxslərin, erməni döyüşçülərinin, İran tırlarının gəlməsidirsə, təbii ki, bu bizi qane etməyən stabillikdir. Stabillik anlayışı Azərbaycan ordusunun 44 günlük döyüş yolunun sonunda əldə etdiyi gerçəklikdədir. Rusiyanın mövqeyi təbii ki, öz şəxsi maraqları çərçivəsindədir və onlar hesab edirlər ki, stabillik hər iki tərəfin maraqları çərçivəsində həllini tapmalıdır. Biz maraqlarımızı ortaya qoymuşuq və bundan sonra da qorumağı bacaracağıq. Erməni tərəfinin maraqlarını isə Rusiya qorumağı özünə borc hesab edir. Bu baxımdan, status məsələsini ortaya atır. Lavrov: "indi orda vəziyyət sabitdir"- deməklə, belə hesab edir ki, bu, hər iki tərəfi qane edən ifadədir, amma əslində isə ordakı sabitlik bizim maraqlarımıza ziddir. Azərbaycan dövlətinə qarşı üsyan etmiş bir toplum və onun "idarəçiləri" niyə rus nəzarətində sakit və stabil vəziyyətdə yaşamalıdır? Bu şərait bizi qane edə bilərmi? Azərbaycan hesab edir ki, bu toplumun içərisindəki normal təfəkkürü olan, Azərbaycan idarəçiliyi altında yaşamağı qəbul edən erməni, ancaq Azərbaycanın nəzarətində və onun bayrağı altında onun vətəndaşı kimi stabil vəziyyətdə yaşaya bilər".

**A.Qasımov əlavə edib ki, Lavrovun dediyi stabillik həmin erməni toplumunun özünə inamını, ayrı yaşamaq üçün özgüvən qazanmasını təmin edən stabillikdir:** "Hesab edirəm ki, Qarabağdakı üsyankar erməni toplumu bizim nəzarətimizdən kənarda bir gün də olsun stabil vəziyyətdə yaşamamalıdırlar. Onların hər günü qorxu və təhlükə içərisində keçməlidir, o vaxta kimi ki, özləri Azərbaycana onun bayrağı altında hal-hazırda Azərbaycanda yaşayan ermənilər kimi yaşamağı qəbul etsinlər. O vaxt Azərbaycanın təvazökar milləti onların bu xahişlərini qəbul edər deyə düşünürəm".

Yeganə Bayramova

# Zəngəzur dəhlizinin açılmasına şübhə yoxdur

*Bundan sonra bölgədəki proseslər daha intensiv olacaq, strateji layihələr sürətlə inkişaf edəcək*

**Prezident İlham Əliyev Türkiyənin "Anadolu" agentliyinə müsahibəsində kifayət qədər mühüm məsələlərə diqqət çəkib. Prezident torpaqlarımızın azad edilməsinə başlandığı 27 sentyabr tarixinin birinci ildönümü ilə əlaqədar danışaraq Ermənistanın 30 ilə yaxın müddətdə törətdikləri təxribatlardan söz açıb.**

Ali Baş Komandan bəzi beynəlxalq təşkilatların erməni terroruna göz yumması, üçtərəfli bəyanatın icrası və Zəngəzur dəhlizi ilə bağlı da danışıb. Dövlət başçısı deyib ki, Ermənistan ilk olaraq Türkiyə ilə əlaqələrini normallaşdırma istəyində olmalıdır:

"Eyni zamanda Azərbaycanla əlaqələrini normallaşdırsın. Türkiyə və Azərbaycanla sərhədlərini müəyyənləşdirsin. Onlar bu işdə bizdən daha çox istəkli olmalıdırlar. Çünki bu olmazsa, demək ki, sərhəd də yoxdur. İndi Ermənistanda və bəzi xarici siyasətçilər bizi Ermənistan torpaqlarını işğal etməklə günahlandırır. Birincisi, bu, yalandır. İkincisi, Ermənistan bizi işğal edəndə niyə səsinizi qaldırmırdınız? Niyə gözünüzü bağlayırdınız? 30 il ərzində sadəcə işğal deyil, bütün tarixi və dini abidələrimiz yerlə-yeksan edildi. Bütün binalar dağıdıldı. Bunu görmürdünüzmü? Minsk qrupunun həmsədrləri dəfələrlə orada oldu. Ağdamda, Kəlbəcərdə, Füzulidə, Cəbrayılda oldular. Görmürdülərmi?".



**Prezidentin çıxışını "Şərq"ə dəyərləndirən Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri, millət vəkili Asim Mollazadə bildirib ki, ölkə başçısı müsahibəsində mühüm və dəqiq kontekstdən çıxış edərək, mövcud həqiqətləri bir daha bütün dünyanın diqqətinə çatdırıb:**



"Ermənistan Azərbaycan torpaqlarını 30 ilə yaxın işğal altında saxladı. Təəssüf ki, beynəlxalq təşkilatlar, ilk növbədə BMT Təhlükəsizlik Şurası öz qətnamələrinin icrasına dair hansısa ciddi addımlar atmadı, təcavüzkarlara qarşı sanksiyalar müəyyənləşmədi. ATƏT-in Minsk qrupu isə sadəcə olaraq münaqişəni "dondurmaqla" məşğul olurdu. Prezident çox düzgün qeyd etdi ki, beynəlxalq təşkilatların təməl sənədlərinə uyğun olaraq hərəkət etməməsi ilə münaqişə yenidən canlandı və Ermənistanın təxribatları nəticəsində müharibə başladı. Beləliklə, Azərbaycan özü ərazilərini azad etdi. Dövlətimiz həm Minsk qrupunun yerinə münaqişəni bitirdi, həm də BMT-nin qətnamələrini özü icra etdi. Artıq "Dağlıq Qarabağ" adlı bir münaqişə yoxdur. Azərbaycan Ermənistanı ərazi iddialarına son qoyaraq bölgədə gedən proseslərdə iştirak etməyə dəvət edib. Dövlətimiz bununla yanaşı Qarabağı əməkdaşlıq bölgəsinə çevirmək istiqamətində Türkiyə ilə birgə mühüm layihələri həyata keçirir".

**Parlament üzvünün sözlərinə görə, Prezidentin müsahibədə toxunduğu digər mühüm amil Zəngəzur dəhlizinin açılması ilə bağlıdır:**

"Zəngəzur dəhlizinin açılmasına hansısa şübhə yoxdur. Bundan sonra bölgədəki proseslər daha intensiv olacaq, strateji layihələr sürətlə inkişaf edəcək. Təəssüflə qeyd etməliyik ki, İran qonşuluq siyasətinə və islam dəyərlərinə zidd olaraq Ermənistana dəstək verir. Bu, qəbuledilməzdir. Azərbaycan öz mövqeyini hər zaman müdafiə etməyə qadirdir. Ərazilərimizdə yaşamaq istəyən ermənilər normal həyatlarını davam etdirə bilərlər. Ölkəmizdə bir sıra dini etnik qruplar sərbəst və firavan yaşayırlar. Ermənilərə də bu istiqamətdə müvafiq şərait yaradıla bilər. Artıq onların da belə istəkləri var, Azərbaycandan iş istəyirlər. Çox gözəl anlayırlar ki, Azərbaycan Qarabağı cənnətə çevirə və ermənilər də bu durumdan bəhrələnə bilər. Çünki onların həyatı indiyə qədər dözülməz olub".

# Ermənilərə etibar yoxdur

## Gürcüstanın vasitəçilik təklifi realaşa bilməz



**Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Azərbaycan və Ermənistana vasitəçilik təklif edib. Baş nazir bildirib ki, iyun ayında Gürcüstan iki qonşu ölkə arasında uğurlu vasitəçilik edib və bu, presedenti olmayan hadisə olub.**

Onun sözlərinə görə, Cənubi Qafqazda sülh təşəbbüsü bu prosesin davamıdır: "Biz qardaş dövlətlər arasında mediasiya, Tbilisini danışıqlar meydanı kimi təklif edirik". Gürcüstanın Avropa Şurası Parlament Assambleyasındakı (AŞ PA) nümayəndə heyətinin rəhbəri İrakli Çikovani də deyib ki, Tbilisi Cənubi Qafqazın münaqişə bölgəsindən sülh regionuna çevrilməsi üçün sülh və təhlükəsizliyin təşviqinə hər zaman hazırdır. Onun sözlərinə görə, bölgədə diqqət ümumi regional maraqlar naminə dialoqun təşviqi və etimadın möhkəmləndirilməsinə yönəldilməlidir: "Gürcüstanın vasitəçiliyi ilə Azərbaycanla Ermənistan arasında əldə olunmuş humanitar razılaşma tərəflər arasında dialoq üçün potensialı nümayiş etdirib və prosesin davamı üçün faktiki olaraq yaxşı zəmin yaradıb. Cənubi Qafqazda sülhün bərqərar olunması bölgədə mehriban qonşuluq münasibətlərini möhkəmləndirə və dayanıqlı inkişafa şərait yarada bilər".

**"Vasitəçiliyin real nəticə verməsi əsas şərtdir. Əks halda ermənilərə görə vasitəçilərə də inam qalmayacaq"**

Gürcüstanın vasitəçilik niyyəti ilə bağlı "Şərq"ə danışan Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli deyib ki, qonşu Gürcüstanın vasitəçilik təklifi alqışlayıqdır. Partiya rəsmisinin sözlərinə görə, Gürcüstan bölgə dövləti olaraq qonşuluğunda sülh və əmin-amanlıq istəyir: "Rəsmi Tbilisinin Bakı və İrəvanla münasibətləri normaldır. Gürcüstan bir dəfə vasitəçilik edib və müəyyən nəticə verib. Ancaq məsələ hansısa ölkənin vasitəçilik missiyasında yox, birbaşa Ermənistan tərəfinin sərgilədiyi mövqedədir. Məsələ ondadır ki, Gürcüstanın vasitəçiliyi ilə alınmış minalı ərazilərin xəritəsinin də çox az hissəsi dəqiq olub. Ermənistan tərəfi iki xəritə-əsir mübadiləsi həyata keçirib. Ancaq hər ikisində də saxtakarlıq ediblər. Ermənilərə etibar yoxdur. Ona görə də vasitəçi tərəf Ermənistana təsir gücünə sahib olmalıdır ki, verilən vədlərin yerinə yetirilməsini təmin edə bilsin. Yəni Tbilisinin tərəflərlə yaxşı münasibətinin olması faktı bizim üçün kifayət etmir. Azərbaycan bütün vasitəçilik təkliflərinə açıqdır, amma bu vasitəçiliyin real nəticə verməsi əsas şərtdir. Əks halda ermənilərə görə vasitəçilərə də inam qalmayacaq".

**İsmayıl Qocayev**

# Tacikistan səbəb ola bilməz

## Rusiyanın Əfqanıstana müdaxiləsi mümkün deyil



**Radikal "Taliban" hərəkatının siyasi bürosunun rəhbəri, Əfqanıstan Baş nazirinin müavini vəzifəsini icra edən Əbdül Qani Baradar Tacikistanı ölkənin daxili işlərinə qarışmaqda günahlandırıb. O, "Əl-Cəzirə" telekanalına verdiyi müsahibədə belə deyib. Baradar bunları söyləyib:**

"Tacikistan işlərimizə qarışır, hər bir hərəkətə qarşı çıxmaq olar".

*Müvəqqəti hökumətin belə ciddi addımlar atması, şübhəsiz, riskdir. Bəs risk "Taliban" üçün nələr vəd edir? Məsələ barədə tanınmış jurnalist Xaqani Səfəroğlu "Şərq"in suallarını cavablandırıb:*

**- "Taliban"ın Tacikistanı ittiham etməsi nə ilə bağlıdır?**

- Tacikistan "Şimal alyansı"nda, yəni Əhməd Məsudun rəhbərlik etdiyi müqavimətçilər cəbhəsində müəyyən təsir gücünə malikdir. "Taliban" bunu özünə qarşı təhdid hesab edir. Düşünür ki, Tacikistandan plastarm kimi istifadə oluna bilər. Həm də Əhməd Məsudun Tacikistanla əlaqələrini nəzərə almaq lazımdır. Üstəgəl, Tacikistanda radikal dini icmalar var. Və bu ölkə əfqan köçkünləri üçün müntəzəm olaraq sığınacağa çevrilib. Rusiyanın Əfqanıstandan tam çıxmamaq üçün təsir mexanizmi kimi Tacikistandan yararlanması da mümkündür.

**- Tərəflər arasında hərbi toqquşma ehtimalı nə qədərdir?**

- Bu, inandırıcı deyil. Çünki "Taliban" hansısa toqquşmada maraqlı deyil. Onun əsas məqsədi daxili hakimiyyətini qorumaq, gücləndirməkdir. Bu məqsədlə hətta liberal addımlar atmağa da hazırdır. Eyni zamanda Tacikistanın KTMT üzvü olması, Rusiya ilə hərbi əməkdaşlığı radikal qruplaşmanı çəkindirir, belə demək mümkünsə, qorxudur.

**- Bəs Moskva Əfqanıstana müdaxilə məqsədilə Tacikistandan istifadə edə bilərmi?**

- Rusiyanın Əfqanıstana müdaxiləsi mümkün deyil. Əfqanıstana əbəs yeri "imperiyaların çökdüyü yer" demirlər. SSRİ və ABŞ bir dəfə Əfqanıstana müdaxilə edib və bunun ac nəticəsini görüb. Əksinə, Kreml yeni hakimiyyətlə daha çox diplomatik müstəvidə "dil tapmağa" çalışacaq.

**- Bunu şərtləndirən nədir?**

- Məsələ ondan ibarətdir ki, Əfqanıstandan mühüm elektrik dəhlizi keçir. Beynəlxalq güclər, o cümlədən də Rusiya həmin boru kəmərlərinin öz nəzarətində olmasını istəyir. Bu mənada Moskva təsir vasitəsini qorumaqdan ötrü toqquşmada maraqlı deyil. Hər halda proseslər hakimiyyətin özündən asılıdır. "Taliban"ın isə ciddi təcrübəsi olmadığına görə birmənalı addımlar ata bilmir.

**- Belə çətin vəziyyətdə "Taliban" hakimiyyətinin legitimləşməsi nə qədər realdır?**

- Bu, hər şeydən əvvəl "Taliban"ın dünya ölkələri ilə münasibətindən asılıdır. Maraqlıdır, atacağı addımlar "Taliban"ın legitimləşməsinə imkan verəcəkmi? Bu məsələdə beynəlxalq dəstəkçilərin, o cümlədən Pakistanın da rolu çox mühümdür. İkinci bir məqam isə daxildəki siyasi qüvvələr ilə əlaqələrdir. "Taliban" hakimiyyətinin ilk dövründəki kimi şəriət qaydaları qəbul etsə belə, bu dəfə onları müasir çağırışlara uyğunlaşdırmalıdır.

**Kənan**

# İran ismarıclardan nəticə çıxarmalıdır

***Durmasalar, ictimaiyyətimizin, o cümlədən oradakı soydaşlarımızın daha sərt mövqeyi ilə qarşılaşacaqlar***

**Prezident İlham Əliyev İran yük maşınlarının qanunsuz olaraq Qarabağa yük daşımasından danışıb. İlham Əliyev "Anadolu"ya müsahibəsində deyib ki, İran TIR-larının qanunsuz şəkildə Qarabağa getməsi ilk belə hal deyil. "Bu, işğal vaxtı da baş verdi. Bu TIR-lar ardıcıl şəkildə ora gedirdi. Bizim məlumatlarımız var idi, amma indiki kimi dəqiq bilgi, əlbəttə ki, yox idi", - deyə İlham Əliyev əlavə edib.**

İlham Əliyev daha sonra bildirib: "Biz bunu göz önünə gətirərək müxtəlif kanallarla İrana narazılığımızı ifadə edirdik. Lakin bu proses davam edirdi. Müharibə bitdikdən sonra artıq Laçın dəhlizi gözümüzün önündədir. Bizim hərbi mövqelərimizdən Xankəndiyə gedən yola olan məsafə 5-6 metrdir.

Biz Laçın dəhlizi boyunca Şuşa ətrafında və digər bölgələrdə kifayət qədər texniki izləmə imkanlarına malikik. Orada kameralar var. Peykdən istifadə edirik. Pilotsuz uçuş aparatlarını



istifadə edirik. Biz gördük ki, TIR-lar müharibədən sonra ora getməyə davam edir. Mən Prezident Administrasiyasının vəzifəli şəxslərinə təlimat verdim ki, İranın Azərbaycandakı səfiri ilə danışsınlar. Biz bunu rəsmiyyətə gətirmək istəmirdik. Dedik ki, dostca görüşsünlər və buna son verilməsinin vacibliyini söyləsinlər. Çünki bu, bizə qarşı, ərazi bütövlüyümüzə qarşı hörmətsizlik idi, buna son verilmədir. Bu görüş səhv etmirəmsə, iyul ayında oldu.

Bundan sonra təbii ki, biz məsələni izləməyə davam etdik, hər ayın əvvəlində bizə məlumat gəlirdi ki, İran TIR-larına ermənicə yazılar yapışdırmağa çalışırlar. Yəni belə saxtakarlığa əl atdılar, bizi aldatmağa çalışdılar. Bunu elə səriştəsizliklə etdilər ki, avtomobilin üzərində yazılar farsca, aşağı hissədə isə ermənicə idi".

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, sabiq millət vəkili Fərəc Quliyev dövlət başçısının cənub qonşumuza mesajlarını "Şərq"ə qiymətləndirib:**

"Biz İranın yanlış, qonşuluğa və müsəlmanlığa sığmayan hərəkətləri ilə bağlı dəfələrlə yumşaq dillə ona xəbərdarlıq etmişik, iradımızı bildirmişdik. Lakin Tehran dərs götürmədi - müharibədən əvvəl olduğu kimi sonra da Qarabağa yüklər daşıdı. Prezidentin çox çıxışından sonra isə bəzi İran politoloqları çox səviyyəsiz münasibət bildirdilər. Bu, sadəcə tərbiyəsizlikdir. Dövlət başçısının dediyi kimi İran bu davranışlarına qon qoymalıdır. Otuz il təlim keçməyibsə, indi niyə keçir?!".

*F.Quliyev, həmçinin vurğulayıb ki, Azərbaycanın da səbrinin həddi var:* "Rəsmi Tehran ortaya sərt mövqe qoyacağımız təqdirdə qarşımızda dayana bilməyəcəyini hiss etdi. Fikrimcə, İran ismarıclardan nəticə çıxarmalıdır. Əks halda ictimaiyyətimizin, o cümlədən oradakı soydaşlarımızın daha sərt mövqeyi ilə qarşılaşacaq. Gərək İran həddini aşmasın. Bilsin ki, hörmətsizliyə adekvat cavab veriləcək".

**Kənan Novruzov**



# Əlbəttə, bahalaşma qaçılmaz olacaq

## Çünki ölkədə həm inhisarçılıq var, həm də yerli istehsal zəifdir

**Gündəlik həyatımızda müzakirə etdiyimiz əsas mövzulardan biri də qida məhsulları, daha doğrusu, bu məhsulların qiyməti ilə bağlıdır. Bir çox hallarda ərzaq məhsullarına qoyulan süni qiymətlər dövlət standartlarından yüksək olur. Bu isə arzuladığımız qida rasionunu bizim üçün əlçatmaz edir. Elə şəhər sakinləri də, süni qiymət artımı ilə az qala hər gün rastlaşdıqlarını deyirlər.**

Hər gün ərzaq məhsullarının qiyməti 20-30 qəpik bahalaşır. Marketlərdə kim necə istəyir, o cür qiymət qoyur. Məsələn, şəkər tozu, qənd və yağın qiyməti hər ötən gün bahalaşır. Çörəyin isə qiymətini bahalaşdırmasalar da, çəkisini azaldırlar.

**Bahalaşmanın səbəblərini "Şərq" sadalayan iqtisadçı-ekspert Fuad İbrahimovun sözlərinə görə, BMT-nin Qida Təhlükəsizliyi Proqramındakı məlumatlara görə, son 10 il ərzində dünyada ərzaq məhsullarında artım müşahidə olunur:** "Elə məhsullar var ki, onların artım tempi verilən proqnozlardan belə bahadır. Qiymətləri tənzimləmək üçün inhisarçılığı tamamilə aradan qaldırılmalıdır. Təəssüf ki, istəsək də, istəməsək də bazarlarımızda inhisarçılıq mövcuddur. İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti adlı qurum var. Düşünürəm ki, bu qurum xidmətini daha da aktivləşdirməlidir. Qeyd edim ki, ərzaq məhsullarındakı bahalaşma bütün dünyada mövcuddur".

*İqtisadçı qeyd edib ki, qiymətlərin bahalaşmasına səbəb olan digər amil yerli istehsalın zəifliyi və bunun fonunda ölkəmizin idxal amilindən asılı olmasıdır:* "İdxal amili dedikdə, məsələn, çörək istehsal etmək üçün buğdanı xaricdən gətiririksə, əlbəttə, bu durum qiymətlərə təsir göstərəcək. Yaxud da süd məhsulları istehsal edirik, lakin Azərbaycana quru süd gətiririksə, yerli istehsal idxal amilindən asılı qalacaq. Yerli istehsal şəxələnməli və gücləndirilməlidir. Məsələn, ölkəmizdə süd məhsulları kimi quru südün özü də istehsal olunsa yaxşı olar. Bu, istehsalın tamamlanması deməkdir. Bahalaşmaya səbəb olan iki amili-inhisarçılığı azaltmağı və istehsalı gücləndirməyi həyata keçirsək, qiymət artımının qarşısını almaq mümkündür".

**Yeganə Bayramova**

# Tabeçiliyi təbliğ edənlər başa keçirilir

## Şəhidin məzarı başında İsrailə böhtan atan qadın Hacı Şahin Həsənlinin moizələrindən dərs alanlardandır

**Füzuli uğrunda gedən döyüşlərdə canından keçmiş 18 yaşlı şəhidimiz, fəxr və qürur yerimiz Dəmirov Ədalət Nüsrət oğlunun məzarı başında hicablı qadınların çıxışı ictimaiyyətdə narazılıqla qarşılanıb. Buna səbəb isə xanımların İranın siyasi mövqeyindən İsrailə qarşı çıxış etmələri olub: "Hər birimizin susmağı bizim Azərbaycanın başına bir bəladır. Hər birimiz haqqı bilək danışmayaq, hamımızın başına bəla gələcək. İsraili bütün yerlərdən qovlayıb çıxardıblar, indi Bakıda məskən salıb. Biz bu günləri qorxudan səsimizi çıxartmayaq. Mən də dinmirəm. Amma buna yüz faiz əmin olun ki, uzağı 5 ilə İsrail bizi Fələstinin gününə salacaq. Yəni şiələr bizim üstümüzə qalxacaq, evimizdə uşaqlarımızı öldürəcək və ondan sonra da bu torpaqları ələ keçirəcək. İsrail heç bir müsəlman ölkəsi ilə dost deyil, xanımlar. Bunu yadınızdan çıxardın. Bilin ki, İsrail bizə elə-belə silah verməyib".**

Sual olunur, bu xanımlar dua oxumağa gəlib, ya şəhiddən, şəhidin ailəsindən təbliğat məqsədilə istifadə etmək üçün? Bu cür hallarının qarşısının alınması üçün hansı addımlar atılmalıdır?

**Mövzuya münasibət bildirən ilahiyyatçı-ekspert Tural İrfan "Şərq"ə açıqlamasında qeyd edib ki, din siyasətdən ayrıdır. O vurğulayıb ki, ölkədə din adamlarının, ruhanilərin siyasətə qarışması doğru deyil:** "Şəhidin məzarı başında hicablı qadınların İranın siyasi mövqeyindən İsrailə qarşı çıxış etməsi məhz şeyxlik məqamına hazırlaşdırılan Şahin Həsənli kimi şəxslərin uzun illik təbliğatının nəticəsidir. Çünki İranın Azərbaycandakı nümayəndəsi qeyri-rəsmi tələbələr yetişdirir, bunlardan biri də Hacı Şahindir. Onun bütün moizələri, söhbətləri, təşkil etdiyi ayin və tədbirlər sırf İran təməyüllüdür və İranın siyasi xəttinə xidmət edir. Bu təbliğatın nəticəsində də belə adamlar yetişir. İranda dinlə siyasət eynidir. Ona görə onların ruhanilərinin hər bir fətvası, göstərişi sırf öz ölkələrinin maraqlarına xidmət edir. Ancaq bizim ruhanilər də onları kor-koranə təqlid etməklə bir növü məcburi şəkildə İranın siyasi maraqlarına alətə çevrilirlər. Ölkədə dini maarifçilik düzgün aparılmır. Dünən görürəm ki, bütün milli düşüncəli, savadlı, elmi dərəcəsi olan ilahiyyatçı və ruhanilərdən vaz keçilərək, heç bir ilahiyyat təhsili almamış, ixtisasca texnoloq olan Şahin Həsənlini Şəhidlərin anım günündə başa keçirib nazirlə yanaşı təqdim edirlər. Bu da haqlı olaraq ziyalı dini təbəqədə etiraz yaradır. Əksər ziyalılar, hətta partiya sədrləri belə buna etiraz edir bu gün. Çünki hamı görür kim kimdir. Müctəhidə təqlid sistemini ölkədə formalaşdırdılar. Və deyirlər ki, müctəhid də yalnız İranda ola bilər. Odur ki, namaz qıldınsa gərək hökmən müctəhidə təqlid edəsən, yəni tabe olasan. Bunu təbliğ edənlərdən biri də məhz Şahin Həsənlidir. Mən əminliklə deyirəm ki, o qadın Şahin Həsənlinin moizələrindən dərs alanlardandır. Yəni kimlərsə dindarları İrana alət edir. Əksər məscidlərdə Kəbədən sonra İrana, Xorasana ikinci qiblə kimi ibadət edilir. İran mollasına xüms, zəkat adı ilə ianələr göndərilir".





*T.İrfan əlavə edib ki, ən əsası isə onlara təbliğ olunur və bunu edənlər başa keçirilir:* "Milli ruhda təhsil alan, Türkiyə meyilli, savadlı, ziyalı ilahiyyatçıları isə uzaqlaşdırıblar. İsrail Qarabağ savaşında Azərbaycana kömək edib. İsrail İranın düşməni ola bilər. Ancaq bunun bizə dəxli yoxdur. Bizim öz düşmənimiz var. Qarabağda məscidlərə donuz salan erməniyə bir söz deməyən o xanım, Azərbaycan əsgərinin qalib gəlməsi üçün ən modern silahlarını bizə təqdim edən bir ölkəyə dil uzadır, təxribat yaradır. Mən hesab edirəm ki, o və onun kimi adamları məhz o cür düşünməyə vadar edən qüvvələr zərərsizləşdirilməlidir. Son günlər İranla yaranan bəzi narahatlıqlardan dərhal sonra bu kimi çıxışlar meydana gəldi. Deməli bu, idarə olunur. Qafqaz Müsəlmanları İdarəsi ölkəmizdə İran səfirliyindən daha böyük işlər görüb İran üçün. Onun bir xırda nümunəsi həmin molla xanımın çıxışıdır. Ona görə də ölkədə müstəqil, milli islam modeli formalaşmalıdır. Yerli, savadlı, elmi dərəcəli, ziyalı ilahiyyatçılara imkan yaradılmalıdır ki, onlar qabağa düşüb inancılı insanları xarici təbliğatdan qorusunlar. Nəinki bayaq adını çəkdiyim kimi adamları, əqidəsini gizlədib üzdə bir cür, arxada başqa cür fəaliyyət göstərən şəxsləri önə çıxarsın".

**Aynurə Pənahqızı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**




# Azərbaycan açıq-aşkar zərərçəkmiş tərəfdir

## AŞ PA-nın çağırışları Ermənistana ünvanlanmalıdır

**İsmayıl Qocayev**

**Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) payız sessiyasında "Ermənistan və Azərbaycan arasındakı münaqişənin humanitar nəticələri" adlı qətnamə qəbul edilib. Qətnamədə 1991-1994-cü illərdə baş verən birinci Qarabağ müharibəsi və 2020-ci ildə 44 günlük ikinci Qarabağ müharibəsi zamanı həlak olanlar, itkin, qaçqın, məcburi köçkün düşənlər, mədəni irsə dəyən ziyanlar, minalanmış ərazilər və digər məsələlər yer alıb.**

Həmçinin, Qarabağ müharibəsi zamanı baş verən insan faciəsinin aradan qaldırılması məqsədilə hər iki tərəfə tövsiyələr ünvanlanıb. AŞ PA İkinci Qarabağ müharibəsinə son qoyan 9-10 noyabr tarixli atəşkəs elan olunmasına dair üçtərəfli razılaşmanı yüksək qiymətləndirib. Sənədin atəşkəs üçün əsas elementlərdən ibarət olduğunu, müharibənin humanitar nəticələrinin həll edilməsinə imkan yaradan aparıcı sənəd olduğunu bildirib. Qətnamənin müzakirəsi zamanı çıxış edən AŞ PA üzvləri mina xəritələrinin Azərbaycana verilməsinin bundan sonrakı insan ölümünün qarşısının alınması üçün vacib olduğunu xüsusi vurğulayıblar. Beynəlxalq icma xüsusilə Avropa Şurası hər iki ölkəyə yardım göstərməyə dəvət edilib.

Sənəddə eyni zamanda qeyd olunub ki, Ermənistanla Azərbaycan 2001-ci ilin yanvarında Avropa Şurasına üzv olarkən münaqişəni yalnız dinc yolla həll etmək öhdəliyi götürüblər. Ona görə Avropa Şurası bu məsələni müzakirə etməlidir. Əslində qətnamədəki bu müddəa ikili standartın növbəti təzahürü və öz ərazilərini müharibə yolu ilə azad etmək haqqı verən BMT konvensiyalarına ziddir. Bəli, Azərbaycan 2001-ci ildə münaqişənin sülh yolu ilə həllinə çalışacağına dair öhdəlik götürüb və son 20 ildə buna əməl edib. Ermənistanın bu illərdə bütün həyasız iddialarına, danışıqlarda kobud davranışlarına rəğmən, rəsmi Bakı səbrlə, ATƏT çərçivəsində danışıqları davam etdirib. 30 ilə yaxın bütün sülh təşəbbüslərinin də müəllifi Azərbaycan olub. 2020-ci ildə danışıqlar İrəvan tərəfindən pozulduqdan və düşmən tərəf açıq-aşkar təxribata başladıqdan sonra Azərbaycan müharibə etmək haqqından istifadə edib. İndi AŞ PA-nın tarixin çevrilmiş səhifəsini geri qaytarmaq cəhdi əbəs və faydasızdır. Həmçinin, sənəddə yenidən "Dağlıq Qarabağ münaqişəsi" ifadəsinin yer alması riyakarlıqdır. Prezident İlham Əliyev dəfələrlə belə ərazi olmadığını və Qarabağın Azərbaycan torpağı olduğunu bəyan edib. Dövlət başçısı 27 Sentyabr - Anım Günü ilə əlaqədar xalqa müraciətində növbəti dəfə bildirdi ki, Azərbaycanda "Dağlıq Qarabağ" adlı inzibati ərazi mövcud deyil. Əgər kimsə "Dağlıq Qarabağ" adlı ölünü diriltmək istəyirsə, onu öz ərazisində diriltsin: "Hər kəs bu sözlərlə hesablaşmalıdır və hesablaşacaq". O baxımdan Avropa Şurasının həmin məqamı qabartması "bəlkə də qaytardılar" xülyasının tragikomik nümayişindən başqa bir şey deyil. 44 günlük müharibənin yeni şərtlərini nəzərə almayanların bu cür mənasız addımları ikitərəfli münasibətlərə ziyan vurmaqdan başqa heç bir işə yaramır.

**"Çünki 10 noyabr və 11 yanvar üçtərəfli sazişinin bütün müddəalarına etinasız yanaşan tərəf İrəvandır"**

**Azərbaycan Demokratiya və İnsan Haqları İnstitutunun rəhbəri, hüquq müdafiəçisi Əhməd Şahidov "Şərq"ə açıqlamasında deyib ki, Avropa Şurası Parlament Assambleyası hər dəfə Azərbaycan və Ermənistana balanslı yanaşmaq siyasətini əsas götürüb.** Ekspertin sözlərinə görə, indiki məqamda AŞ PA-nın çağırışı birmənalı Ermənistana edilməlidir. Çünki 10 noyabr və 11 yanvar üçtərəfli sazişinin bütün müddəalarına etinasız yanaşan tərəf İrəvandır: "Rəsmi Bakı üçtərəfli bəyanatların bəndlərinə əməl edir və üzərinə götürdüyü öhdəlikləri tam şəkildə həyata keçirir. Azərbaycan tərəfi öz ərazilərində tapılan erməni əsgərlərinin cəsədlərini qeyd-şərtsiz Ermənistana təhvil verir. Hətta müxtəlif səbəblərdən əsir düşmüş ermənilər belə öz ölkələrinə göndərilib. Erməni tərəfinin öz meyitlərini tapmaları üçün işğaldan azad edilmiş torpaqlarda uzun müddət axtarış aparmalarına da imkan verilib. Ermənistan sadəcə mina xəritələrinin çox kiçik hissəsini bizə verib. Həmin xəritələrin də 75 faizi həqiqəti əks etdirmir. İrəvan region üçün böyük əhəmiyyət kəsb edəb Zəngəzur dəhlizinin açılmasını hələ də gecikdirir. Dəhlizin açılması ilə bağlı 10 noyabr sazişində əks olunmuş şərtlərə əməl etməkdən boyun qaçırır. Hətta erməni rəsmilər Zəngəzur dəhlizi ilə bağlı sazişdə guya heç bir müddəanın olmadığını iddia edərək, buna imkan verməyəcəklərini deyirlər. Hələ də Azərbaycana qarşı nifrət siyasəti, müharibə ritorikası sərgilənir, revanşist bəyanatlar səslənir. Bütün bunlar üçtərəfli sazişin icra prosesini ləngidir. Ən əsası isə tərəflər arasında etimad mühitini zədələyir. Məhz buna görə AŞ PA-nın və digər beynəlxalq qurumların çağırışı ilk növbədə Ermənistana ünvanlanmalıdır. Ancaq AŞ PA-nın real mənzərəni nəzərə almadan yenə də tərəflərə bərabər gözlə baxması qurumun əvvəlki prizmadan kənara çıxmadığını göstərir. Rəsmi Bakının etirazı və narazılığı qətiyyən əsassız deyil".

**Ə.Şahidov bəyan edib ki, əgər həqiqətən post-müharibə dövrünün humanitar məsələlərinə diqqət ayrılırsa və işğaldan azad edilmiş ərazilərimizdə bizə dəymiş maddi-mədəni ziyanın ödənməsindən söhbət gedirsə, bunu ədalətli şəkildə etmək lazımdır:** "Azərbaycan tərəfi də səylərini artırmalıdır. Çalışmalıyıq ki, beynəlxalq parlamentarilər nəhayət öz qərəzindən əl çəksin və obyektiv mövqe sərgiləsinlər. Tək AŞ PA-da deyil, bütün nüfuzlu beynəlxalq təşkilatlarda Ermənistanın bizə vurduğu ziyanı, minalanmış xəritələrin verilməməsini qaldırmalıyıq. Ermənistanla bağlı beynəlxalq məsələlərə müraciət edilib. Amma yetərli deyil. Çünki işğaldan azad edilmiş ərazilərimiz ermənilər tərəfindən yerlə-yeksan edilib, viran qoyulub. İnsanlarımızı həmin torpaqlara qaytarmaq üçün illərlə quruculuq işləri görülməli, şəhərlər yenidən salınmalıdır. Biz açıq-aşkar zərərçəkmiş tərəfik. Ermənistan 30 il ərzində Azərbaycana vurduğu ziyanın əvəzini ödəməlidir. Daim ikili standartlardan çıxış edən Qərb strukturları yaddan çıxartmamalıdır ki, çoxsaylı sənəd və qətnamələr əhəmiyyətsiz kağız parçasına çevrildiyi üçün Azərbaycan son sözünü ordumuz vasitəsi ilə dedi. Əvvəl-axır haqq-ədalət yerini tapır və dünya ictimaiyyəti beynəlxalq qurumların iç üzünü görür".

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



**Bu gün Bakıda Vətən müharibəsinin ildönümünə həsr edilən Memorial.az saytının və "Yaddaş kitabı"nın təqdimat mərasimi keçirilib. Tədbirdə Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin müdir müavini Səadət Yusifova, Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri, deputat Zahid Oruc, Memorial.az saytının baş redaktoru Vüsal Məmmədov, Müdafiə Nazirliyinin nümayəndələri, tanınmış media nümayəndələri, şəhid ailələrinin üzvləri və rəsmi şəxslər iştirak ediblər.**

# Şəhidlər haqqında sayt istifadəyə verildi

## "Onların qəhrəmanlıqlarını detallı şəkildə ictimailəşdirmək lazımdır"

S.Yusifova qeyd edib ki, şəhidlər mövzusu Azərbaycan xalqı üçün həmişə həssas və müqəddəsdir. O deyib ki, Vətən müharibəsi gedişində və müharibədən sonra müxtəlif informasiya resurslarında, media orqanlarında şəhidlər haqqında müxtəlif məlumatlar paylaşılır: "Bu məlumatlar cəmiyyətdə böyük maraqla qarşılansa da, informasiyanın yayılması pərakəndə və sistemsiz xarakter daşıyır. Memorial.az saytının yaradılmasında da əsas məqsədlərdən biri bu pərakəndəliyi aradan qaldıraraq, tarixi yaddaşın formalaşdırılmasına sistemli yanaşmanı tətbiq etmək, hər bir qəhrəmanımız haqqında müfəssəl məlumatları vahid elektron resursda cəmləşdirmək, onları Azərbaycan xalqına daha yaxşı tanıtmaqdır".

Saytın baş redaktoru Vüsal Məmmədov saytla bağlı tədbir iştirakçılarına geniş məlumat verib. O bildirib ki, şəhidlərlə bağlı məlumatlarda pərakəndəlik var idi: "Onlarla bağlı məlumatlar daha da dəqiqləşdiriləcək və sistemləşdiriləcək".

**Bu barədə "Şərq"ə danışan hərbi jurnalist İbrahim Rüstəmli təşəbbüsü yüksək qiymətləndirdi:** "44 günlük müharibə içində yaşadığımız ən böyük tarixdir. Deyirlər ki, müharibə aparan dövlətdə hər şey döyüşməlidir. Bizdə də belə olmuşdu. Şəhidlərimiz qələbimizin memarıdırlar. Onlar savaşa gedərkən "ailə" yox, "vətən" dedilər. Ona görə də kimsə qəhrəmanlarımıza şərik ola bilməz. Bu müharibə ləyaqət, milli kimlik mübarizəsi idi".

*Təcrübəli qələm sahibi, həmçinin saytın kollektivinə səslənib:* "Onları təbrik edirəm. Amma saytı yaratmaq hələ hər şey demək deyil. Əsas məsələ bundan sonra başlayacaq. Şəhidlər haqqında xronoloji, bioqrafik məlumatlar verməklə kifayətlənmək olmaz. Onların qəhrəmanlıqlarını detallı şəkildə ictimailəşdirmək lazımdır. Təəssüf ki, müharibə dövründə hərbi reportyorlarımız işləyə bilmədilər. Əks halda biz gələcək nəsillərə yalnız şəhidlərimiz haqqında məlumat yox, həm də müharibənin gedişatı barədə informasiya verərdik".

**Kənan**

# Tehranda gözlənilən üçtərəfli görüşün müzakirələri zəngindir

## Rasim Musabəyov: "İranın hərəkətləri unudula bilməz. Sərt ritorika ilə, tələb dililə olmasa belə bu məsələ gündəmə gələcək"

**Yaxın zamanda Tehranda Azərbaycan, Türkiyə və İran xarici işlər nazirlərinin görüşünün keçiriləcəyi ilə bağlı məlumat var. Müzakirələrin hansı tarixdə baş tutacağı hələlik məlum deyil.**

Lakin mövzuları təxmini müəyyənləşdirmək mümkündür. Şübhəsiz ki, cənub qonşumuzun son dövrlərdəki qeyri-adekvat davranışları da gündəmə gələcək.

Görüş barədə "Şərq"ə danışan millət vəkili, politoloq Rasim Musabəyov düşünür ki, tərəflər regionla bağlı əsas proseslər ətrafında danışacaqlar: "Əlbəttə, İranın hərəkətləri unudula bilməz. Fikrimcə, sərt ritorika ilə, tələb dililə olmasa belə bu məsələ gündəmə gələcək. Ola bilər ki, narahatlıq tam aradan qalxmasın, amma "təzyiq düşəcək". Hər halda görüşün Tehranda keçiriləcəyinə baxmayaraq, bizim üçün daha əlverişli mühitdir. Çünki iki qardaş dövlət İranda çiyin-çiyinə olacaq".

**Kənan**

# Gürcü hökuməti tələbə həssas yanaşmalıdır

## Qarabağlılar kəndinin adı azərbaycanlılara qaytarılmalıdır




**Gürcüstanın Kaspi rayonunun azərbaycanlılar yaşayan Çanqilari (Qarabağlılar) kəndində gərginlik baş verib.**

Sakinlər kəndin giriş hissəsində üzərində gürcü və Azərbaycan dillərində "Qarabağlı" adının yazıldığı lövhə quraşdırıblar. Əraziyə polis cəlb olunub. Sakinlərə bunun qanunsuz olduğu bildirilib və lövhənin sökülməsi tələb edilib. Sakinlər kəndin tarixi adının "Qarabağlı" olduğunu bildirərək lövhəni götürməkdən imtina ediblər. Lövhəni quraşdıranlardan biri Fazil Əliyev bildirib ki, kəndin əzəli adının qaytarılması ilə bağlı Gürcüstan hökuməti və parlamentə müraciət olunub.

**Məsələ ilə bağlı "Şərq"ə açıqlama verən siyasi-analitik Züriyə Qarayeva deyib ki, baş verən məlum hadisənin arxasında kənar qüvvələr dayanır:** "Təbii ki, Gürcüstanda yaşayan azərbaycanlılara qarşı zaman-zaman təxribat xarakterli addımlar atılıb və bu məsələ hökumətlərarası danışıqlar yolu ilə nizama salınıb. İndi isə bu tip addımların atılması, yəni azərbaycanlıların kəndin doğma adını qaytarmaq üçün etdikləri təşəbbüsə qarşı polis zorakılığının edilməsi mahiyyət etibarı ilə iki ölkə arasında mövcud olan münasibətlərə zərbə vurmağa hesablanıb. Hesab etmək olar ki, Gürcüstan hökuməti və yerli administrativ qurumlar baş verən hadisələrlə bağlı azərbaycanlıların milli heysiyyatını nəzərə alaraq, kəndin əzəli adının bərpasına şərait yaradacaqlar. Fikrimcə, Gürcüstan və Azərbaycan arasında mövcud olan qarşılıqlı iqtisadi, siyasi, mədəni əlaqələrin yüksək səviyyədə olması belə kiçik təxribatların böyük böhranlara səbəb olmasına imkan verməyəcək. Nəzərə alsaq ki, Gürcüstanda 600 mindən çox azərbaycanlı yaşayır ki, bu da kifayət qədər böyük rəqəmdir".

**Aynurə**

# Qarabağ döyüşçüsü insaf gözləyir

## 11 nəfərlik ailənin yükü tək onun üzərindədir



**Azərbaycan ordusunun erməni qəsbkarlarına qarşı başladığı 44 günlük Vətən müharibəsinin minlərlə qəhrəmanından biri ilə oxucularımızı tanış edirik: Eldar Fərzəli oğlu Quliyev. Eldar Quliyev 18 iyul 1987-ci ildə Astara rayonunda anadan olub. 2005-ci ildə həqiqi hərbi xidmətə çağırılan Eldar 2007-ci il xidmətini başa vurub.**

Hərbi xidmətdən sonra özəl mühafizə xidmətində xidmət rəisi vəzifəsində işləyib. Hərbi sahəyə istək və marağı onu yenidən ordu sıralarına gətirib. 2014-cü ilin iyul ayından Beyləqan rayonu ərazisindəki N saylı hərbi hissədə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətə başlayıb. Tuşlayıcı operator olaraq peşəkarlaşıb.

Vətən müharibəsi başlayanda Azərbaycan ordusunun çavuşu Eldar Quliyev döyüşlərə atılıb. Müharibənin ən gərgin ilk günlərində Füzuli, Cəbrayıl istiqamətlərində döyüşüb.

**Müharibənin mənzərəsini Eldar "Şərq"ə belə təqdim etdi:**

- Yaddaşımda qalan, heç vaxt hafizəmdən silinməyəcək mənzərə əsgərlərimizin üzündəki təbəssümdür. Böyük ruh yüksəkliyi vardı bütün əsgərlərdə, şəxsi heyətdə. Çünki bu günü - ordumuzun hücuma keçib işğal altındakı torpaqlarımızı azad etməyə başlamasını hamımız həmişə gözləmişik, arzulamışdıq. İndi arzularımız yerinə yetirdi. Nəhayət ordumuz torpaqlarımızı azad edirdi. Erməni dığalarını torpaqlarımızdan qovub çıxarırdıq. 30 illik həsrətə son qoyulurdu. Ona görə hamı sevincli idi. Biz Hadrut qəsəbəsinə daxil olanda ürəyim sızladı. Düşündüm ki, burda bizim əhali yaşayıb, sonra ermənilər buraları mənimsəyib. Evlərə daxil olurduq, bir tərəfdən də sevinirdim ki, daha bundan sonra burada bizim insanlar yaşayacaq. Kədərimizsə yalnız itirdiyimiz döyüş yoldaşlarımıza görəydi. Erməni silahlıları hərbi maşınımıza atəş açdılar. Maşındakı 9 nəfərdən - mən onların içində olmaqla 8 nəfər yaralandı, komandirimizsə şəhid oldu. Mən komandiri maşından çıxarmağa çalışdım, baxmayaraq ki, özüm də yaralanmışdım, qəlpələr sifətimi, bədənimi yandırmışdı. Amma hayıf ki, komandir artıq şəhid olmuşdu. Bu hadisə mənə çox ağır təsir etdi.

**E.Quliyev digər yaralı əsgərlərlə birgə yaxınlıqdakı Zoğcuq xəstəxanasına gətirilib. Lakin xəstəxana Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulduğu üçün yaralılar Saatlı rayonundakı 5 saylı xəstəxanaya gətirilib:**

- Bu xəstəxanada bir neçə gün qaldım. Məni Bakıdakı 5 saylı xəstəxanaya köçürdülər. Sonra Əfəndiyev adına şəhər xəstəxanasına. 25 gün müalicə olundum. Daha sonra məzuniyyətə buraxıldım.

**Ailəsinə Eldar Quliyevin şəhid olması xəbəri verilib:**

- 7 saat anam, ailəm elə bilib ki, şəhid olmuşam. Sonra xəbər veriblər ki, yox, Eldar Quliyev şəhid olanlar arasında deyil. Biliblər ki, xəstəxanadayam. Mən bir qədər yaxşılaşanda özüm anama zəng etdim. İnanmırdı ki, telefonda danışan mənəm. Elə bilirdi, döyüş yoldaşlarımdan kimsə mənim adımdan danışır, onu aldadır ki, oğlu salamatdır. Dedim, ana, mənəm, Eldar. Yavaş-yavaş inanmağa başladı.

*Hazırda Eldar Quliyev Beyləqanda MAXE kimi hərbi xidmətini yenə davam etdirir. Lakin döyüşdə aldığı yaralara görə əlillik dərəcəsinin təyin edilməsini gözləyir:*

- Bu məsələ hələ açıq qalıb. Gözləyirəm, nə vaxt mənə əlillik dərəcəsi təyin ediləcək. 11 nəfərlik ailənin yükü mənim üzərimdədir. Atam, qardaşım vəfat edib. Qardaşımın övladına da anam baxır. Mənim də 2 azyaşlı övladım var.

Qeyd edək ki, Eldar Fərzəli oğlu Quliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib. Hər bir təltif dövlətin əsgərinə verdiyi dəyərin nümunəsidir. Amma Eldar da minlərlə Vətən oğlu kimi "biz torpaqlarımızı düşməndən azad etmək üçün döyüşmüşük. Yenə lazım gələrsə, istənilən an Vətənimiz, dövlətimiz üçün döyüşə atılmağa hazırıq" deyir.

Vətən sizlərə əmanətdir, igid oğullar.

**Məlahət Rzayeva**

# Orta məktəblərdə dərslərin başlaması sevindirici hadisədir

## Ancaq ali məktəblərdə tədrisin təşkili bir sıra çətinliklər yaradacaq



**Sentyabrın 29-dan ümumi təhsil müəssisələrinin V-XI sinifləri üzrə, eləcə də məktəbdənkənar, peşə, orta ixtisas və ali təhsil müəssisələrində ənənəvi şəkildə tədrisə başlanılacaq.**

Builki tədris ilini müəllim və şagirdlər qalib xalqın qalib övladları kimi qarşılayır. Təhsil müəssisələrində ilk dərslər Təhsil naziri Emin Əmrullayevin imzaladığı "2021-2022-ci tədris ilində ümumi təhsilin fəaliyyət istiqamətləri barədə" əmrinə əsasən "Qarabağ Azərbaycandır!" mövzusuna həsr olunacaq. 2021-2022-ci tədris ilində respublikanın ümumi təhsil müəssisələrində ümumilikdə 1 milyon 589 min 829 şagirdin təhsil alacağı proqnozlaşdırılır. Ümumtəhsil məktəblərinin IX sinfində 132 min 881, XI sinfində isə 91 min 538 şagird təhsil alacaq. Xatırladaq ki, sentyabrın 22-dən ümumi təhsil müəssisələrinin ibtidai (I-IV) siniflərində ənənəvi formada yeni dərs ilinə başlanılıb.

**Təhsil eksperti Kamran Əsədov "Şərq"ə açıqlamasında vurğulayıb ki, sentyabrın 29-dan etibarən ölkədə tədrisin tam bərpa olunması böyük hadisədir. Ekspert bildirib ki, pandemiya dövründə dərslərin mənimsənilməsində ən çox ibtidai sinif şagirdləri əziyyət çəkib:** "Bu baxımdan ibtidai sinif müəllimləri xüsusən anlayışlı olmalıdırlar. Onlar nəzərə almalıdırlar ki, bu şagirdlər tədris prosesindən tamamilə kənarda qalıblar və birdən-birə proqramın mənimsənilməsində çətinlik çəkəcəklər. Hesab edirəm ki, tədrisin ilk vaxtlarında müəllimlər çalışmalıdır ki, 1 il 6 ay ərzində keçirilməyən və yaxud da zəif keçirilən mövzuları şagirdlərə yenidən başa salsınlar. Nəzərə alaq ki, bu müddət ərzində şagirdlərin bir çoxu texniki fənlərin mənimsənilməsində müəyyən çətinliklərlə üzləşiblər. Diqqətin bu fənlərə yönəldilməsi xüsusilə önəmlidir. Bunun üçün şagirdlərin diaqnostik qiymətləndirilməsini həyata keçirmək lazımdır. Yəni diaqnostik imtahan nəticəsindən sonra şagirdlərin hansı mövzunu necə mənimsədiyini müəyyənləşdirmək mümkün olacaq. Ancaq ali məktəblərdə tədrisin təşkili bir sıra çətinliklər yaradacaq. Çünki ali məktəblərlə bağlı müəyyən problemlər var. Yəni bu il dərslər ali məktəblərdə hibrid formada təşkil olunacaq. Təbii ki, bunun özü də çətinlik yaradacaq. Həmçinin, onu da qeyd edim ki, ali məktəblərdə tədris proqramı ilə bağlı bizi bu il ciddi yeniliklər gözləyir".

*Təhsil eksperti qeyd edib ki, yaşı 18-dən yuxarı olan tələbələrin vaksinasiya olunması ilkin tələblərdən biridir:* "Amma bu o demək deyil ki, ali və orta ixtisas təhsil müəəssisələrində təhsil alanlar vaksin olunmasalar tələbə sırasından xaric olunacaq. Düzdür, ali təhsil müəssisələrinə tələbələrin qəbulu, eyni zamanda xaric edilməsi qaydalarında var ki, daxili nizam-intizam qaydalarının pozulması tələbələrin ali və orta ixtisas məktəblərindən kənarlaşdırılması göstərilə bilər. Amma burda bir məsələ var ki, hazırda qanunvericilikdə peyvənd olunmadığına görə tələbələr sırasında xaric edilmə bu hallar sırasında yoxdur. Əgər tələbə daxil nizam-intizam qaydasını pozarsa və akademik göstəricisi aşağı olarsa, təbii ki, o, tələbələr sırasından çıxarıla bilər. Əgər 18 yaşda olan şəxslər vaksin olunmasalar, o zaman onlar uzun müddət tədris prosesindən kənarda qalacaq ki, bu da onun tələbələr sırasından çıxarılmasına gətirib çıxarda bilər".

**Aynurə Pənahqızı**

## HƏRRACLARIN KEÇİRİLMƏSİNƏ DAİR ELANLAR

Şirvan şəhəri üzrə İcra Şöbəsinin 28.09.2021-ci il tarixli, 1886/10-11 saylı sifarişi ilə xüsusi mülkiyyətdə olan Şirvan şəhəri, T.ismayılov küçəsində yerləşən, 11 saylı evin, 47 nömrəli mənzili açıq hərraca çıxarılmışdır. Hərrac açıq hərrac qaydasında keçirilməklə 15 oktyabr 2021-ci il tarixi, saat 1100-a (növbəlik qaydasında) təyin edilmişdir. Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir. Əmlakın ilkin satış qiyməti 52.000 (əlli iki min) manat məbləğində müəyyənləşdirilmişdir. Hərracda iştirak üçün ilkin satış qiymətinin 5%-i, yəni 2600 (iki min altı yüz) manat məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına ödənilməlidir.

Hərrac addımı - əmlakın ilkin satış qiymətinin 1%-dən çox olmamaqla.

*(Əlavə olaraq "Qeyd"ə bax).*

Şirvan şəhəri üzrə İcra Şöbəsinin 28.09.2021-ci il tarixli, 1885/10-11 saylı sifarişi ilə Ağayev Ramal Qələm oğluna məxsus, 5 saylı Ərazi Vergilər İdarəsi tərəfindən siyahıya alınmış, 35 ədəd (hər biri 28 manata olmaqla) poliver açıq hərraca çıxarılmışdır. Hərrac açıq hərrac qaydasında keçirilməklə 15 oktyabr 2021-ci il tarixi, saat 1100-a (növbəlik qaydasında) təyin edilmişdir. Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir. Əmlakın ilkin satış qiyməti ümumilikdə 980 (doqquz yüz səksən) manat məbləğində müəyyənləşdirilmişdir. Hərracda iştirak üçün ilkin satış qiymətinin 10%-i, yəni 98 (doxsan səkkiz) manat məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına ödənilməlidir.

Hərrac addımı - əmlakın ilkin satış qiymətinin 1%-dən çox olmamaqla.

*(Əlavə olaraq "Qeyd"ə bax).*

**QEYD:** Yuxarıda göstərilən hərraclarda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə 1 (bir) gün qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır. 1) Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq); 2) Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd; 3) Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

4) Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti.

*Hərracın təşkilatçısı*
*"Əmlak Hərrac Mərkəzi" MMC*

**Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.**
**Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56 e-mail: info@e-herrac.com**
**rəsmi internet saytı: e-herrac.com**
**instagram səhifəsi: e.herrac (Emlak Herrac Merkezi**


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**
**KURSLAR**
**-MÜHASİBAT** (2 AY)
**-Mobil telefonların təmiri** (3 ay)
**-KOMPYUTER** (1-3 AY)
**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)
**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)
**-Dizayn** (3-6ay)
**-Masaj** (3 ay)
**-Biçmə - Tikiş** (3 ay)
**-Məktəb Psixologiyası** (12 ay)
**Tel: (012) 489-08-84**
**Mob: (070) 241-28-67**
**www.az-baku.com**


## Əyilib torpağını öpdü

### Rasim Balayev: "Elə bilirdim Şuşanı bir də görməyəcəm"




**Şuşaya yollanan Xalq artisti Rasim Balayev Cıdır düzündə əyilib torpağı öpüb.**

*"Şərq"in məlumatına görə, aktyor bunun arzusu olduğunu söyləyib:*

"Şuşanı bir daha görməyəcəyimi düşünürdüm. Ali Baş Komandanımız, əsgərlərimiz sağ olsunlar. Şəhidlərimizin ruhları şad olsun, Allah qazilərimizi var eləsin. Onlar bizə bu günü göstərdilər. Burada gəzirəm, hələ də inana bilmirəm. Son dəfə 1986-cı ildə gəlmişdim. İsa bulağının yanında yemək yemişdik. Hər il, xüsusilə də yayda bu yerlər yadıma düşürdü. Həmişə yay aylarında əsəbiləşirdim ki, mən Şuşanı itirdim. Şəhidlik zirvəsinə hər adam yüksələ bilmir. Biz şəhidlərimizin sayəsində bura gəldik. Ali Baş Komandanımıza Tanrıdan güc, qüvvət, iradə diləyirəm. Necə ki, Allah bunları ona verdi, o da sözünü tutdu".

**Samirə**

## Səyyad Əlizadənin səhhədində dəyişiklik yoxdur



**Müğənni Səyyad Əlizadənin koronavirusla mübarizəsi davam edir.**

"Şərq"ə sənətçinin son sağlıq durumu haqda məlumat verən kürəkəni Razim Qarayev onun vəziyyətində bir dəyişiklik olmadığını söyləyib:

"Stabil ağır olaraq qalıb. Süni tənəffüs aparatına qoşuludur".

*Xatırladaq ki, S.Əlizadə birinci doza vaksin olunduqdan sonra yoluxub.*

**Samirə**

## "İnşallah, bizə də nəsib olar"

### Şəbnəm Tovuzlu da fəxri ad arzusundadır



**Zaman-zaman sənət adamlarının - istər aktyorların, istərsə də müğənnilərin fəxri ad arzularının olduğunu eşidirik.**

Onlar sosial şəbəkə hesablarında, mətbuata müsahibələrində bu diləklərini dilə gətirirlər. Bəzən isə birbaşa Mədəniyyət Nazirliyinə müraciət edirlər. Yəni "fəxri ad davası" bitmir ki, bitmir...

**Şəbnəm Tovuzlu da fəxri ad almayan müğənnilərdən biridir. "Şərq"lə həmsöhbət olan sənətçi deyib ki, o da fəxri ad arzusundadır:**

"Mən muğam təhsili almışam, xənəndəliyi bitirmişəm. Yaşıdım olan sənətçilər var ki, onlar da ad gözləyirlər. Məsələn, Gülay Zeynallı, Zenfira İbrahimova. İnsanın illər ərzində etdikləri nəzərə alınır, baxılır. Biz el şənliklərində muğamlar da, bəstəkar mahnıları da ifa etmişik. Hər janrda ifalarımız olub. Əsas odur ki, müğənni müxtəlif tərzdə mahnıların öhdəsindən gələ bilsin. Bizim Könül Kərimovamız, Nazpəri Dostəliyevamız var. Onlar illərdir ev şənliklərində olublar, xalqın sevimliləridirlər. Xalq və əməkdar artist adlarına layiq görülüblər. İnşallah, bizə də nəsib olar".

**Samirə**

## İki səbəb bahalaşmaya şərait yaradıb

### Neftin qiymətinin 80 dollar olması uzun müddət davam edə bilməz




**Dünya bazarlarında "Brent" markalı neftin qiyməti 2018-ci il oktyabrın 23-dən sonra ilk dəfə olaraq 80 ABŞ dolları səviyyəsini ötüb. Buna dünyada xammala olan tələbin təklifi üstələməsi səbəb olub.**

Bakı vaxtı ilə 08.16-ya olan məlumata görə, Şimal dənizində hasil olunan "Brent" neftinin dekabr fyuçersləri 0,85 faiz bahalaşaraq, 1 bareli 79,36 ABŞ dollarına satılıb. "Brent" neftinin noyabr fyuçerslərinin qiyməti isə 0,83 faiz artıb və 1 bareli 80,19 ABŞ dolları təşkil edib. Gün ərzində qiymət 80,35 ABŞ dollarına çatıb.

WTI neftinin noyabr fyuçerslərinin qiyməti 0,85 faiz bahalaşaraq, 1 bareli 76,09 ABŞ dolları təşkil edib. Qiymət artımı dünyada təklifin asta templərlə artması fonunda xammala olan tələbin yaxşılaşması perspektivləri ilə bağlıdır. Bazarlar həmçinin OPEC-in yeni proqnozunu gözləyirlər.

**Neftin qiymətinin bahalaşmasına dair "Şərq"ə açıqlama verən Neft Araşdırmalar Fondunun rəhbəri, iqtisadçı İlham Şaban sentyabr ayı ərzində qiymətin 10 dollardan çox artmasının əsasən iki faktordan qaynaqlandığını qeyd edib:**

"Birinci səbəb odur ki, əvvəllər neftin qiymətinin artımı öz arxasınca qazın qiymətini də artırırdı. Bu dəfə isə əksinə oldu. Qazın qiymətinin kəskin artımı bazarda neft məhsullarına olan tələbatı çoxaltdı. Bu durum da neftin qiymətinin bahalaşmasına şərait yaratdı.

Bahalaşmanın ikinci səbəbi klimatik faktorlardan qaynaqlanır. ABŞ-da 1 ay içində iki- "İda" və "Nikolas" qasırğası baş verdi. Nəticədə neft hasilatı 1.5-1.7 milyon barel azaldı. Bu azalma ABŞ-da həftəlik neft ehtiyatlarının da azalmasına gətirib çıxartdı. Bütün bunlar neftin qiymətinin 80 dolları keçməsinə səbəb oldu. Qiymətlərin belə olması təbii ki, uzunmüddətli davam edə bilməz. Bazarda ötən ildən neftin həcmlərinin kəskin düşməsi ilə bu il ona artan tələbata olan reaksiya nümayiş olunur. Düşünürəm ki, bazar bir müddətdən sonra özünü bu prosesə uyğunlaşdıracaq".

**Yeganə Bayramova**

## Mövsümi xəstəliklər immuniteti zəiflədir

### Oktyabr-noyabr aylarında qripə qarşı vaksinasiya aparıla bilər



**Hazırda COVİD-19 pandemiyası ilə mübarizə apardığımızı nəzərə alsaq, payız fəslinin gəlişi insanları daha diqqətli olmağa sövq edir. Bu zaman həm mövsümi qriplər, həm də onun nəticəsi olaraq immun sisteminin zəifləməsindən insanlarda koronavirus yarana bilər.**

Bununla bağlı Gürcüstanda mövsümi qripə qarşı vaksinasiya başlanacaq. Milli Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Mərkəzinin rəhbəri Amiran Qamkrelidze bildirib ki, Gürcüstanda qrip virusu adətən noyabr ayında görünür və dekabr-yanvar aylarında pik həddə çatır. Qripə qarşı vaksinasiya koronavirusa qarşı peyvəndləmə ilə paralel aparılacaq. Bizdə də bu prosesə başlanılmalıdırmı?

**Prosesin ölkəmizdə başlaması ilə bağlı "Şərq"ə danışan həkim Şahvələt Məmmədov bildirib ki, əhali arasında kütləvi sürətdə koronavirus əleyhinə vaksinasiya prosesi davam etdirilir:**

"İnsanların virusdan qorunmaları, epidemioloji qaydalara əməl etmələri həmin mövsümi qriplərin, həmçinin paralel virusların kəskinləşməsinin qarşısını alır".

Həkim diqqətə çatdırıb ki, ölkəmizdə koronavirusun ilk dalğası dövründə qrip və pnevmaniya əleyhinə vaksinasiya aparıldı:

"Biz həkimlər də o cümlədən vaksinasiyaya cəlb olunduq. Keçən il də bu proses həyata keçirildi".

**Ş.Məmmədov vurğulayıb ki, hər il oktyabr-noyabr aylarında peyvəndləmə işinə başlanılır:**

"Hələ ki, bizdə bu barədə məlumat yoxdur".

Həkim güman edir ki, bizdə də oktyabr-noyabr aylarında həmin proses həyata keçiriləcək: "Yəqin ki, əlaqədar qurumlar tərəfindən informasiya veriləcək".

**Sücayət Mehti**


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı, Samirə Ərəblinski

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1671



# 17 il araşdırıldı

## Mumiyanın yadplanetli olduğu müəyyənləşib



**17 il ərzində elm adamları tərəfindən böyük diqqətlə araşdırılan 15 santimetrlik mumiyanın yadplanetli olduğu müəyyənləşib.**

"Şərq" Türkiyə mətbuatına istinadən xəbər verir ki, 2003-cü ildə Çilinin Atacama bölgəsində başı konus şəkilli və uzunluğu 15 sm olan mumiya ilə bağlı araşdırmalar beynəlxalq bir elmi qrup tərəfindən aparılıb. Kaliforniya, San-Fransisko və Stanford Universiteti tərəfindən aparılmış DNT analizləri nəticəsində məlum olub ki, bu mumiya genetik mutasiyalara məruz qalmış 6-8 yaşlarında olan cırtdan qıza aiddir. Elmi araşdırmalar, uşağın 40 il əvvəl öldüyünü və indiyə qədər təyin olunmamış gen xəstəlikləri səbəbindən dünyasını dəyişdiyini müəyyənləşdirib.

**Aynurə**

# Tutuquşu kimi budaqdan düşmür

## İş adamının xoruzu hamının sevimlisi oldu



**Türkiyənin Van bölgəsində yapon "onagadori" cinsindən olan uzun quyruqlu xoruz, tutuquşular kimi davamlı budaqda dayanır. Xoruzun bu halı görənlərin diqqətini cəlb edir.**

İş adamı Fateh Özdəmirə bu xoruzu Boluda məskunlaşan bir yoldaşı hədiyyə edib. Özdəmir deyir ki, bu quş başqa xoruz cinslərindən fərqlidir. Xoruz tutuquşular kimi davamlı bir budaqda özünə məskən salır. O qədər maraqlıdır ki, uzun quyruqlu xoruzu görənlər dərhal telefonuna sarılaraq onunla fotolar çəkdirir.

Jurnalistlərlə söhbəti zamanı Fateh Özdəmir deyib ki, xoruza gözü kimi baxır. Özdəmir sözünə belə davam edir:

- 2-3 il əvvəl tutuquşularım vardı. Bunu görən dostum, "Sənə xoruz hədiyyə edim, belə quş kimi ağacda dayanacaq" dedi. Mən də inanmadım, amma yenə də göndər dedim. Sonra göndərdi və təxminən 2 ildir bəsləyirik. Heç aşağı enmir. Yalnız kimsə çox narahat edəndə və acanda enir.







# İdman geyimlərinin qıtlığı yaşanacaq

## Pandemiya ilə əlaqəli bir çox ticarət zəncirləri qırılıb

**Aynurə Pənahqızı**

**Amerikalı idman geyimləri istehsalçısı "Nike" logistika sahəsində qlobal problemlər səbəbindən məhsullarının mümkün çatışmazlığı barədə xəbərdarlıq edib. Şirkət idman ayaqqabılarının istehsalında və çatdırılmasında yaranan fasilələrin 2022-ci ilin yazına qədər davam edə biləcəyini açıqlayıb. Təchizat zəncirinin kəsilməsi və Asiyada işçi çatışmazlığı buna səbəb kimi göstərilir.**

Amerikalı istehsalçı artıq gələn il üçün öz satış proqnozunu azaldıb. Şirkətin məhsullarının dörddə üçü istehsal edilən Vyetnam və İndoneziyadakı fabrikləri yerli hökumətin koronavirusla bağlı məhdudiyyətlərindən təsirlənib. Bundan əlavə, Asiyadan Şimali Amerikaya məhsul göndərmə vaxtı iki dəfə artaraq 40 gündən 80 günə çatıb. ABŞ-da bu hal artıq uşaq oyuncaqları, taxta, yeni geyim və ev heyvanları üçün qida çatışmazlığına və nəticədə daha yüksək qiymətlərə gətirib. Oyuncaq istehsalçısı "Hasbro" və idman geyimi nəhəngi "Adidas" kimi digər böyük markalar da tətil mövsümündə potensial təchizat problemləri barədə bildirib. Həmçinin, İngiltərədə yüksək qaz qiymətləri səbəbindən müəyyən məhsulların, yanacağın çatışmazlığı yaşanır. Bəs, idman ayaqqabılarının istehsalında və çatdırılmasında yaranan fasilələr Azərbaycana necə təsir edəcək?

**İqtisadçı-ekspert Natiq Cəfərli "Şərq"ə açıqlamasında bildirib ki, dünyada pandemiya ilə əlaqəli bir çox təchizat zəncirlərində problemlər yaşanmaqdadır. Ekspert vurğulayıb ki, bu, avtomobil sənayesinə də təsir edib:** "Hazırda bir sıra sahələrin zəncirlərində qırılmalar müşahidə olunur. Hətta bir çox ölkələrin avtomobil şirkətləri istehsalı ya müvəqqəti dayandırmağa, ya da ki, azaltmağa qərar veriblər. Bu kimi bənzər hadisələrə digər sahələrdə də şahid oluruq. Bu, iqtisadi münasibətlərin pandemiyadan dolayı çox ciddi zərər görməsi, ziyana uğramasıdır. Yəni pandemiya kifayət qədər bu sahədə problemlər yaradıb və bu səbəbdən də hazırda təchizat zəncirlərinin dəyişməsi baş verməkdədir. Asiyanın bəzi ölkələrindən, o cümlədən Çindən təchizat zəncirlərinin digər ölkələrə, o cümlədən Türkiyə üzərindən də qurulmasına çalışılır. Hətta Türkiyə hökuməti bunun üçün kifayət qədər əmək sərf edir. Ona görə də bu, obyektiv problemdir və 2022-23-cü ilə qədər davam edəcək. Çünki sərhəd keçidinin çətinləşməsi, logistik xətlərdə yaranan problemlər bir çox hallarda bu problemin artmasına səbəb olan əsas amillərdəndir".

*Ekspert diqqətə çatdırıb ki, Azərbaycan bir çox məhsullardan, o cümlədən də idman geyimlərindən idxaldan asılı olan bir ölkədir:* "Nike" brend markası olduğuna görə, Azərbaycanda da populyardır. Lakin buna baxmayaraq, geniş satış həcminə malik deyil. Çünki bizdə bu ayaqqabıların qiyməti çox bahadır. Ona görə də insanlar daha çox ucuz və bənzəri firmalara, ayaqqabılara üstünlük verirlər. Amma idman ayaqqabılarının istehsalında və çatdırılmasında yaranan fasilələr müəyyən qiymət artımına təsir edəcək bir amilə çevrilə bilər. Ancaq düşünmürəm ki, məhz bu səbəbdən qiymət artımının sürəti xeyli arta bilər. Çünki son illər onsuz da bizdə inflyasiya kifayət qədər sürətlənib".



# 80 pişik saxladı, borca düşdü

## Təqaüdünü pişiklərə xərcləyən qadının qapısını indi "məhkəmə döyür"



**Antalyada yaşayan 52 yaşlı Könül Gülər küçədə yaşayan, yardıma möhtac pişik və itləri mənzilinə gətirərək, onlara qulluq edib, pişik qidası alıb, həkim müayinəsinə aparıb, ehtiyac olduqda müalicə etdirib. Hazırda qadının evində 80 pişik və 2 it var. Könül Gülər 5 il vvəl təqaüdə çıxıb.**

Aldığı təqaüdü pişiklərə və itlərə xərcləyib. Lakin təqaüd pulu yetərli olmadıqca bankdan kredit alıb. Zamanla banka da borclanıb, pişik və itləri müalicə etdirdiyi klinikaya da. Toplamda 90 min lirə borcu var. Borcunu ödəyə bilmədiyi üçün məhkəməyə verilib. Məhkəmə qərarıyla borclar təqaüdə yönləndirilib, nəticədə Könül Gülərin əlinə təqaüd pulundan yalnız 25 lirə çatıb. Bu səbəbdən maddi vəziyyəti daha da pisləşib. Könül Gülər köməksiz heyvanlara sahib çıxılmasını istəyir: "Pişiklərlə bir yerdə xoşbəxtəm. Hər cinsdən, hər rəngdə, hər növ pişiklərim var. Bir-birləriylə yola gedirlər. Saldırğan olanları ayrı otaqda saxlayıram. 6 aydır təqaüdümdən əlimə ancaq 25lirə çatır. Onlara lazımi qədər yemək ala bilmirəm. Bu balaların küçədə, möhtac vəziyyətdə qalmaması üçün yardıma ehtiyacım var. Kimsə bu canlılara sahib çıxsın", söyləyən Könül Gülər məhəllə sakinləri arasında pişiklərə təpki göstərənlərin olduğunu, hətta pişiklərdən bir neçəsini zəhərlədiklərini də deyib.

**Məlahət**

# "Cəhənnəm quyusu"na endilər

## Omanlı tədqiqatçılar tarixə düşdülər



**Omanlı tədqiqatçılar Yəməndə məşhur "Cəhənnəm quyusu"nun dibinə enən ilk insanlar olaraq tarix yazıblar. Bəziləri 112 metr dərinlikdəki çuxurun "cin həbsxanası" olduğuna inanır.**

"Şərq" "Ntv.com"a istinadən xəbər verir ki, "Cəhənnəm quyusu"nun digər adı "Berehud quyusu"dur.

Bölgədə "Cəhənnəm quyusu" haqqında bir çox əfsanə var.

Bəziləri quyunun Yer kürəsini məhv edə biləcək super bir vulkan olduğunu iddia edir. Çuxurdan pis qoxular gəldikdən sonra cəhənnəmə açılan bir qapı olduğu düşünülür. Ona görə də çuxura məşhur "Cəhənnəm quyusu" adı verilib. Tədqiqatçılar çuxurda ilanlar, qurbağalar, böcəklər və ölü heyvanlar tapıblar.

**Yeganə**




# Mehmandarovların malikanəsi bərpa olunur

**İşğaldan azad olunan ərazilərimizdə Azərbaycan dövləti tərəfindən həyata keçirilən nəhəng yenidənqurma işləri, o cümlədən Şuşada aparılan bərpa və quruculuq prosesi Şuşanın orijinal memarlıq üslubuna uyğun olaraq gerçəkləşdirilir.**

Mədəniyyət Nazirliyindən verilən məlumata görə, həyata keçirilən işlər çərçivəsində Mehmandarovların malikanə kompleksi də bərpa edilir.

Hal-hazırda Mehmandarovların malikanə kompleksində təmir-bərpa işləri aparılır.






***Mehmandarovların malikanə kompleksi ilə bağlı Mədəniyyət Nazirliyinin məlumatı***

Qeyd edək ki, Şuşada yerləşən Mehmandarovların malikanə kompleksi Mehmandarovlar ailəsinə məxsusdur və Azərbaycanın tarix-memarlıq abidələrindən biridir. Azərbaycan xanlıqlarının, o cümlədən, Qarabağ xanlığının idarətmə sistemində bir çox mülki və hərbi vəzifələri yerinə yetirən Mehmandarov nəslinin nümayəndələri tərəfindən XVIII əsrin tarixi-memarlıq abidəsi sayılan Mehmandarovların malikanə kompleksi ucaldılıb.

Şuşa şəhərində yerləşən Mehmandarovların malikanə kompleksinə böyük yaşayış evi, kiçik yaşayış evi və məscid daxildir. Həmçinin daha sonralar məscidə gedən yolun üstündə bulaq tikilib.

Mehmandarovların malikanə kompleksi ilk dəfə 1977-78-ci illərdə Azərbaycan SSR Mədəniyyət Nazirliyi tərəfindən pasportlaşdırılıb.

Mehmandarovların böyük yaşayış binası sovet dönəmində Şuşa Şəhər Xəstəxanası kimi fəaliyyət göstərib.

19 may 1987-ci il tarixindən vaxtilə Mehmandarovlar ailəsinə məxsus olan yaşayış kompleksində Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin (indiki Azərbaycan Milli Xalça Muzeyi) Şuşa filialı fəaliyyətə başlayıb.

1992-ci ildə Şuşa şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən işğala məruz qaldığı üçün filialdakı daşınması mümkün olan eksponatlar təxliyyə olunaraq Bakıya gətirilib. Müharibə dövründə Mehmandarovların malikanə kompleksinə də ciddi ziyan dəyib, dağıntılar törədilib. Mülkdə olan əksər tikililər yerləyeksan edilib. Mehmandarovların kiçik yaşayış binası isə ermənilər tərəfindən Şuşa Tarix Muzeyi kimi fəaliyyət göstərirdi. Kompleks ərazisindəki məscid isə ermənilər tərəfindən mənimsənilmiş və Geologiya Muzeyinə çevrilmişdi.

# Türkəçarə dərd də gətirir

## "Bir dəfə yandım, bir daha yanmayacağam"



**Diz qapağı ağrıyan 55 yaşlı Nalan Karakaya bir qohumunun məsləhətiylə söyüd ağacı qabığının külünü dizinə sürtərək üzərini sarıyıb. Yarım saat sonra dizində istilik və ağrı hiss edib.**

Sarğını açdıqda diz dərisinin yandığını görüb. Həkimə gedəndə məlum olub ki, dəridə üçüncü dərəcəli yanıq əmələ gəlib. "Şərq" "Milliyyet.com"a istinadən xəbər verir ki, Nalan Karakaya "dizimdə kirəclənmə vardı. Oynaqlararası maye tükənmişdi. Bir qohumum "biz istifadə etdik, köməyi oldu" deyib, toz halına gətirdiyi söyüd ağacı qabığının külünü mənə verdi ki, sən də istifadə et. Mən də dizimə sürtdüm, üstündən də sarıdım. Amma kəskin ağrı, yanıq təsiri duydum" deyərək əlavə edib "bir dəfə yandım, bir daha yanmayacağam". Nalan Karakaya əvvəlcə Ağrıdakı xəstəxanaya, sonra isə Ərzurum Şəhər Xəstəxanasının Yanıq Müalicəsi Mərkəzinə gətirilib, dəridəki yanıq müalicə edilib. Xəstəxana həkimi isə "alternativ müalicə üsulları təhlükəli ola bilər. Lütfən, istifadə etmədən həkimlə məsləhətləşin" çağırışı edib.

**Məlahət**

# Kişilər daha erkən ölür

## Pandemiya insan ömrünü azaldıb



**COVID-19 pandemiyası ömrün azalmasına səbəb olub.**

Böyük Britaniyada Oksford Universitetinin alimləri COVID-19 pandemiyası səbəbi ilə 2020-ci ildə ömür müddətinin azaldığını müəyyən ediblər.

Avropa, ABŞ və Çili də daxil olmaqla 29 ölkədən 22-də ömrün uzunluğu 2019-cu ilə nisbətən altı aydan çox azalıb. Əksər ölkələrdə kişilərin ömrünün qadınlara nisbətən daha çox azaldığı müəyyən edilib. Eyni zamanda, amerikalı kişilərin ən çox zərər gördükləri qeyd edilir, onların ömürləri 2019-cu ilə nisbətən 2,2 il qısalıb.